RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 34 (8913) ÇƏRŞƏNBƏ AXŞAMI, 15 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# “Bu gün gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək”

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam və Ağcabədi rayonlarına səfər ediblər



Bax: səh. 2-8



"Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı olub



Ağdam Sənaye Parkında iki müəssisənin təməli qoyulub



"Park Forest Hotel Ağdam" mehmanxanasının təməli qoyulub



209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməli qoyulub



Ağdam Cümə məscidində bərpa-restavrasiya işləri ilə tanışlıq



Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət



"Ağcabədi Taxıl Aqropark"da yaradılan şəraitlə tanışlıq



110/35/10 kilovoltluq "Ağcabədi" Yarımstansiyasının açılışı olub



Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yeni inşa olunan hərbi şəhərciyinin açılışı olub



Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun açılışı olub



210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulub



Xüsusi nümayəndəliyin qərargahında yaradılan şəraitlə tanışlıq



Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksi ilə tanışlıq

# “Bu gün gördüyümüz işlər

## “Ağdam-1”, “Ağdam-2” yarımstansiyaları və “Qarabağ” Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam rayonunda səfərdə olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım əvvəlcə Ağdam şəhərində yeni inşa olunmuş “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının, o cümlədən “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün “Azərenerji” ASC tərəfindən “Xındırıstan” yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Demək olar ki, xətt tam minalanmış ərazidən keçib. Bəzi yerlərdə minalar arasından bir neçə metr enində cığır açılaraq bu çətin vəzifə icra edilib. Ən əsası isə Ağcabədidən Xındırıstana, oradan da “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilib. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib.

Məlumat verildi ki, Ağdam rayon mərkəzində yaradılan böyük və müasir enerji kompleksinin bir hissəsində 110 kilovoltluq açıq və 35, 10 kilovoltluq qapalı paylayıcı qurğuların yerləşdirildiyi inzibati bina da daxil olmaqla, yeni 110/35/10 kilovoltluq “Ağdam-1” yarımstansiyası tikilib. “Ağdam-1” yarımstansiyası tam rəqəmsallaşdırılaraq avtomatlaşdırılıb. Yarımstansiyada aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, sistemin monitorinq və analizinin, problemlərin tez həllinin proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin olunub.






Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.

Dövlət başçısı Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzində “Ağdam-1” elektrik yarımstansiyasının açılışını etdi.

Bildirildi ki, Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir. Ölkə üzrə 2500 kilometr məsafədə çəkilən optik kabel şəbəkəsi üzərindən qurulan yeni sistem vasitəsilə nəinki Qarabağın, bütövlükdə Azərbaycanın enerji sistemi əhatə olunur. Rəqəmsal İdarəetmə Mərkəzindən obyektlərin monitorinqi aparılmaqla, parametrlərdə düzəlişlər edilməsi imkanı yaradılıb. Bu da serverlərin, o cümlədən digər şəbəkə aktivlərinin istismarı üzrə məlumat axınına nəzarət və onun idarə olunmasını mümkün edir. Yeni tətbiq olunan elektron texniki pasportlaşma nəticəsində Mərkəzdən “Azərenerji” ASC-nin struktur tərkibinə daxil olan istənilən müəssisənin nəzdindəki avadanlığın texniki göstəricilərinə və formullarına nəzarət etmək mümkündür.



Həmçinin Qarabağ üzrə Operativ Qərargaha təqdim edilən və ali rəhbərlik tərəfindən təsdiqlənmiş memarlıq layihələri, xətlərin keçdiyi yerlər, icazələr sənədləşdirilərək elektron qaydada sistemləşdirilib. Satınalmalar prosesinin rəqəmsallaşdırılması balans və qalıq dəyərlərinin dəqiq uçotunun aparılmasına, materialların naviqasiyalı hərəkətinin izlənməsinə, israfçılığın aradan qaldırılmasına və səmərəliliyin artırılmasına imkan verib. Nəticədə avadanlığın təmiri, daşınması, qəzaların aradan qaldırılması xərcləri, ehtiyat hissələrinin alınması və başqa sahələrdə səmərəlilik orta hesabla 30 faiz yüksələrək böyük həcmdə maliyyə vəsaitinə qənaət edilib.

Qarabağ Rəqəmsal İdarəetmə Mərkəzinin ərazisində elektrik avadanlığının təmiri sahəsi, xüsusi təyinatlı maşın və mexanizmlər üçün qaraj, anbar binası və mühəndis yataqxanası da daxil olmaqla, digər xüsusi təyinatlı binalar tikilib.

“Ağdam-1” yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin ətrafındakı 2,5 hektarlıq ərazidə yaşıllıq zolağı və meyvə bağı salınıb, xüsusi suvarma sistemi qurulub.

Dövlət başçısına məlumat verildi ki, Ağdam rayonunun Əsgərana yaxın Şelli kəndi istiqamətində yeni 110/35/10 kilovoltluq “Ağdam-2” yarımstansiyası da inşa edilib. Bir neçə ay ərzində minalardan təmizlənmiş ərazidə dördüncü sənaye inqilabının yaratdığı texnoloji yeniliklərə uyğun olaraq süni intellektə adaptasiya edilən enerjisistem şəbəkəsi konsepsiyası çərçivəsində müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya tikilib. Burada 110 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb, açarların, ayırıcıların və digər texniki avadanlığın açılıb-qoşulması, o cümlədən aktivlərin, proseslərin, resursların idarə edilməsi, qüsurların təcili aradan qaldırılması və başqa əməliyyatların proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin edilib. Yarımstansiyanın yeni tikilən İdarəetmə Mərkəzi isə 35 və 10 kilovoltluq rəqəmsal qapalı paylayıcı qurğular yerləşdirilməklə yanaşı, əksqəza avtomatikası, mikroprosessor tipli rele mühafizəsi, avtomatika və idarəetmə panelləri, sabit və dəyişən cərəyan qurğuları ilə təmin edilib. Yarımstansiyada müasir tələblərə cavab verən micro-SCADA sistemi yaradılıb və “Azərenerji”nin mərkəzi SCADA sistemi ilə sinxronlaşdırılıb.

Prezident İlham Əliyev “Ağdam-2” yarımstansiyasını məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə işə saldı.













# Azərbaycanı daha da gücləndirəcək”

## Prezident İlham Əliyev Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri vəzifəsini icra edən Elşad Nuriyev dövlət başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması xüsusi önəm kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, neft-qaz amilindən asılılığın azaldılmasında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Qeyri-neft sektorunun inkişafına mühüm töhfə verən sənaye parklarında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanına əsasən, Ağdam, 4 oktyabr tarixli fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının yaradılması nəticəsində ölkəmizdə sənaye parklarının sayı 7-yə çatıb.

Regionların, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında sənaye məhəllələri də əhəmiyyətli rol oynayır. Hazırda ölkəmizdə 5 sənaye məhəlləsi - Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir.

Sənaye zonaları üzrə indiyədək 90 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. 2021-ci ildə 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilir.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Məlumat verildi ki, Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.











Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. İlk olaraq parkın ərazisinin minalardan və hərbi sursatlardan təmizlənməsi işlərinə başlanılıb və artıq 190 hektar ərazinin 74 hektardan çoxu mina və hərbi sursatlardan təmizlənib, qalan ərazilərdə isə hazırda təmizləmə işləri aparılır. Rezidentlər fəaliyyətə başlayanadək Sənaye Parkında bütün lazımi şərait yaradılacaq. İşçilərin rahatlığının təmin edilməsi məqsədilə artıq Sənaye Parkında mobil tipli şəhərcik salınıb. Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Parkın ərazisində bankomat quraşdırılıb.

Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluq elektrik xətti çəkilib və 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Belə ki, işğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik enerjisi və su təchizatı sistemi Ağdam Sənaye Parkının ərazisində quraşdırılıb. Sənaye Parkının işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir.

Qeyd olundu ki, Ağdam Sənaye Parkının 74 hektar ərazisində topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşdırılıb. Topoqrafik planlama zamanı parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib. Geoloji-tədqiqat işləri zamanı isə parkın ərazisində süxurların tərkibi və litoloji təsviri, fiziki və mexaniki xüsusiyyətləri müəyyənləşdirilib.

Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti bu parkın rezidenti kimi qeydiyyata alınıb. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində sahibkarlar tərəfindən təqdim edilən daha 10-dan çox layihəyə baxılır. Havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı, beton istehsalı, ağır texnikaya texniki xidmətin göstərilməsi və bununla əlaqədar olaraq bəzi metal ehtiyat hissələrinin bərpası və istehsalı, ortopedik matras və yumşaq mebellərin (divan və kresloların), kanalizasiya və içməli su borularının istehsalı və s. təqdim olunan layihələr üzrə əsas fəaliyyət istiqamətləridir.

Ağdam Sənaye Parkının rezidenti “Smartpoint” MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. Layihənin investisiya dəyəri 9,1 milyon manatdır. Layihə çərçivəsində yaradılacaq müəssisədə Türkiyə və İtaliya texnologiyalarından istifadə ediləcək. Müəssisədə ildə 21 min işıq dirəyi və 40 meqavat gücündə digər qurğuların istehsal olunması nəzərdə tutulur. “Smartpoint” MMC Sənaye Parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən (tam infrastruktur təminatı və vergi azadolmaları) faydalanacaq. Sənaye Parkının 1,3 hektar ərazisində inşa ediləcək müəssisədə 80 daimi iş yeri yaradılacaq. Yaxın vaxtlarda müəssisənin layihələndirmə işlərinə başlanacaq. Müəssisənin tikintisinə başlandıqdan sonrakı 6 ay müddətində istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, Gürcüstan, Qazaxıstan və Özbəkistana da ixrac olunması planlaşdırılır.

Digər rezident - “Dadaş-N” MMC Sənaye Parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcək. Məhsul istehsalında polipropilen, polietilen və poliakril kimi yerli xammaldan istifadə olunacaq. İstehsal prosesində Belçika və Çin texnologiyaları tətbiq ediləcək. “Dadaş-N” MMC də Sənaye Parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən yararlanacaq. Sənaye Parkının 2 hektar ərazisində inşa ediləcək müəssisədə 60 daimi iş yeri yaradılacaq. Müəssisənin tikintisinə başlandıqdan 24 ay müddətinə istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılmaqla yanaşı, MDB ölkələrinə ixrac olunması planlaşdırılır.

Dövlət başçısı hər iki müəssisənin təməlini qoydu.

Beləliklə, yeni yaradılan sənaye zonaları, həmçinin Ağdam Sənaye Parkında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

# “Bu gün gördüyümüz işlər

## Azərbaycan Prezidenti “Park Forest Hotel Ağdam” mehmanxanasının təməlini qoyub



Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində inşa olunacaq “Park Forest Hotel Ağdam” mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, “PMD Projects” MMC-nin İdarə Heyətinin sədri Nəriman Topçibaşev dövlət başçısına və xanımına layihə barədə məlumat verdi.

Bildirildi ki, 2,16 hektar ərazidə inşa ediləcək “Park Forest Hotel Ağdam” mehmanxanası 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev hotelin təməlini qoydu.

Qeyd edək ki, son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ bölgəsi işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Strateji mövqeyinə görə Qarabağın giriş qapısı hesab edilən Ağdam rayonunda ən müasir standartlara cavab verən mehmanxananın inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin turizm potensialının inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisidir.

## Ağdamda 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməli qoyulub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və “PMD Projects” MMC-nin İdarə Heyətinin sədri Nəriman Topçibaşev dövlət başçısına və xanımına inşa olunacaq kompleks barədə məlumat verdilər.

Qeyd olundu ki, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.

Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadə etdiyi “Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq” ifadəsi Ağdam rayonunda yeni yaşayış kompleksinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan ağdamlılar üçün bu yaşayış kompleksinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır. Bu mərasim, eləcə də növbəti mərhələdə 0,86 hektar ərazidə daha 4 yaşayış binasının inşası ilə bağlı layihələndirmə işləri aparılması ağdamlılarda bu arzularının da olduqca qısa müddətdə reallaşdırılacağına qəti inam yaradır.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olublar

**Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, işğaldan azad olunan ərazilərdə Heydər Əliyev Fondunun layihələrinin koordinatoru Sabiq Abdullayev dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir.

Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın “Brugger&KO Restauratoren GmbH” şirkəti ilə müqavilə imzalanıb.

Bildirildi ki, ilk addımda örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək.

Məscidin bişmiş kərpicdən hörülmüş iki minarəsinə spiralvari pilləkənlə qalxmaq mümkündür. Birinci mərhələdə qırıq birləşmələr, kafel başları və mövcud rəng nümunələri çıxarılacaq, ikinci mərhələdə minarələrin kərpic hörgülərinin biogen artımının qarşısı alınacaq, üçüncü mərhələdə isə kərpic başları bərpa olunacaq. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək.

Tarixi görüntülərdən də göründüyü kimi, məscid əvvəlcə taxta dam örtüyü ilə örtülüb, kərpic günbəzlər damın altında havadan və küləkdən qorunub. İlkin mərhələdə damın bütün landşaftı son biogen artımından azad ediləcək, qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılacaq.

Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənəcək və ya birləşdiriləcək.

Namaz zalında birinci mərhələdə əsas kərpicdən başqa bütün gips çıxarılacaq və sonrakı iş mərhələləri üçün hazırlanacaq. Bütün otaqlarda əhəng əsasında yeni, üçqatlı suvaq sistemi tətbiq ediləcək, son qatda ilk versiyaya (ağ rəngli) uyğun mineral boya tətbiq olunacaq.

Məscidin mehrabı hazırda qəzalı vəziyyətdədir. Müvafiq olaraq, məscidin bərpası zamanı təxminən 2 metr hündürlüyə qədər torpaq sahəsində duzsuzlaşdırma tədbirləri həyata keçiriləcək.

Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

Görülən işlərlə tanışlıqdan sonra dövlət başçısı çıxış etdi.









# Azərbaycanı daha da gücləndirəcək”

## Prezident İlham Əliyevin çıxışı





- Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq.

Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu. Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır. Azərbaycan iş adamlarına da mən bu gün burada - Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar.

Bu gün, eyni zamanda iki yarımstansiyanın açılışı olmuşdur. Beləliklə, azad edilmiş torpaqlarda yarımstansiyaların sayı 9-a çatıb. “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının fəaliyyəti nəticəsində bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Bu gün Ağdamda mehmanxananın təməli qoyuldu. Müasir mehmanxana təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq. Buraya böyük sayda gələcək qonaqlara indi şərait yaradılır. Əlbəttə ki, bu gün qeyd etdiyimiz hadisələrdən biri də yaşayış kompleksinin təməl daşının qoyulmasıdır. Altı evdən ibarət yaşayış kompleksi təqribən il yarıma - iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq.

Bu gün, eyni zamanda Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulur. Əlbəttə ki, 210 çarpayılıq xəstəxana ağdamlılara tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradacaq.

Keçən dəfə Ağdamda olarkən mən burada 1 nömrəli məktəbin təməlini qoydum. O məktəbdə təqribən minə yaxın şagird oxuyacaq. Yəni bir daha demək istəyirəm, kompleks tədbirlər görülür - elektrik enerjisi ilə təchizat, Ağdama qaz xətlərinin çəkilişi layihəsi indi işlənilir, içməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi builki İnvestisiya Proqramında vardır, yaşayış binaları, mehmanxana, iş yerləri. Yəni bu, hərtərəfli inkişaf deməkdir. Elə bu gün açılışında və təməlqoyma mərasimində iştirak etdiyim obyektlərdə biz bu genişmiqyaslı işləri görə bilərik.

Bununla yanaşı, Ağdamın yolnəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Hesab edirəm ki, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Mənim göstərişimlə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

Bu işlər bir daha onu göstərir ki, biz vaxt itirmədən, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq.

Qarşımızda böyük işlər vardır. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün əlbəttə ki, düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər Baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin Baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu Baş planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin Baş planları işlənilir. Onlar hazır olan kimi biz artıq praktiki işlərə başlayacağıq.

Görülmüş bütün bu işlərlə yanaşı, əlbəttə ki, biz tarixi, dini abidələrimizi də bərpa edirik. Mənə bu gün verilən məlumata görə, Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır. Artıq bütün tədqiqatlar aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək. Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Bütün bu istiqamətlər üzrə işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır.

Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu. Beləliklə, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər.

Artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib. Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz gözləri ilə görürlər ki, bizim xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İmarət ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!



## Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulub

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görüləcək işlər barədə dövlət başçısına və birinci xanıma məlumat verdi. Bildirildi ki, 6 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.

Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Müalicə ocağı ən müasir tibbi avadanlıqla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaq. Binanın zirzəmi hissəsindən isə stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev xəstəxananın təməlini qoydu.

Qeyd olundu ki, növbəti mərhələdə Ağdam rayonu üzrə daha bir neçə səhiyyə müəssisəsinin inşası nəzərdə tutulub. Belə ki, qarşıdakı dövrdə burada Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası, çoxprofilli modul tipli xəstəxana, onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəm əleyhinə xəstəxanalar, 20 çarpayılıq Narkoloji Dispanser, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, 20 həkim məntəqəsi və ya kiçikhəcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Tibb Kolleci də inşa olunacaq.

# “Bu gün gördüyümüz işlər

## Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma qərargahda yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Ağdam şəhərində yerləşən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı ən son innovativ texnologiyalar əsasında tikilib.

Bir hektar sahəni əhatə edən qərargahın ərazisi düşərgə və inzibati hissədən ibarət olmaqla, inşası əsasən 6 komponent üzrə həyata keçirilib. Bunlar yaşayış, inzibati, sağlamlıq, iaşə, müasir düşərgə idarəetmə sistemi və alternativ enerji sahələridir.



Qərargahda innovativ tikinti materiallarından istifadə olunmaqla, yüksəkkeyfiyyətli modul tipli isti və soyuğa davamlı, ekoloji fərdi yaşayış və inzibati binalar inşa olunub. Təhlükəsizliyin təmin edilməsi məqsədilə müasir kamera müşahidə məntəqəsi yaradılıb, açıq və qapalı idman zalları, futbol, basketbol və voleybol meydançaları, ilkin tibbi yardım məntəqəsi, müxtəlif tədbirlər üçün iclas zalı və avtomobil dayanacaqları tikilib.

Qərargahda günəş və bioqaz enerjisindən istifadə sistemləri quraşdırılıb və daxili yollar müasir işıqlandırma sistemləri ilə təchiz edilib. Ümumilikdə 3300 kvadratmetr sahədə salınmış yaşıllıq zolağında ilin hər fəslinə uyğun 30-dan çox növdə ağac və bitki kolları əkilib. Yaşıllıqların suvarılması üçün 3500 metr avtomatlaşdırılmış damcılama və çiləmə sistemləri quraşdırılıb.

İnzibati ərazinin tam mərkəzində Bayraq Meydanı tikilib. Meydanın ətrafı abadlaşdırılıb, burada günəş enerjisi ilə qidalanan işıq dirəkləri quraşdırılıb. Ümumiyyətlə, günəş enerjisi düşərgə daxilində istifadə olunan əsas alternativ enerji mənbəyidir.













## Dövlət başçısı və birinci xanım Qarabağ xanlarının Ağdamdakı türbələri və yaşayış evi - İmarət kompleksində olublar







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və xanımına kompleksdə görülməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verdi.

Qeyd edək ki, XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılıb. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Buradan tövlə kimi istifadə olunub.

Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin - Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, “Məclisi-üns”ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalıb.





# Azərbaycanı daha da gücləndirəcək”



## Ağcabədidə Ulu Öndərin abidəsini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağcabədi rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

## Yenidən qurulan 110/35/10 kilovoltluq “Ağcabədi” Yarımstansiyası istifadəyə verilib







Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq “Ağcabədi” Yarımstansiyasının açılışını edib.

AZƏRTAC xəbər verir ki, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

*Ardı 8-ci səh.*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Ağcabədi Taxıl Aqropark”da yaradılan şəraitlə tanış olublar











Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Ağcabədi Taxıl Aqropark”da yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, aqroparkın icraçı direktoru Elman Kərimov dövlət başçısına və birinci xanıma burada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, müasir əkinçilik və bağçılıq təsərrüfatının qurulması layihəsi olan aqroparkın ümumi sahəsi 3 min hektardır. Bu ərazinin 850 hektarı dövlət ehtiyat fonduna daxildir. Aqroparkın faktiki əkin sahəsi 1368 hektardır. Burada, əsasən, arpa, buğda, qarğıdalı, pambıq, günəbaxan və sair bitkilər becərilib. Aqroparkda həmçinin 110 hektar sahədə intensiv badam bağı salınıb. Burada suvarma mənbəyi kimi Yuxarı Qarabağ kanalından istifadə olunur. Əkin sahələrinin suvarılmasında ən müasir sistemlərdən istifadə edilir.

Məlumat verildi ki, aqroparkın emal sahəsi gündəlik gücü 150 ton olan yem zavodundan və 100 ton olan yem paketləmə xəttindən ibarətdir. Burada həmçinin 26 min kubmetr həcmində müasir taxıl və 12 min kubmetrlik silos anbarları yaradılıb. Gücü saatda 50 ton olan qurutma sahəsində dənli bitkilərin qurudulması üçün müasir avadanlıq quraşdırılıb. Aqroparkın texnika parkı 20 traktor və kombayndan, eləcə də 86 aqreqatdan ibarətdir.

Qeyd olundu ki, “Ağcabədi Taxıl Aqropark”ın təchizatı üçün 3 kilometr uzunluğunda su xətti, 150 min kubmetr həcmində su anbarı, 2 nasos stansiyası, 6 transformator mərkəzi, uzunluğu 4 kilometr olan 10 kilovoltluq birdövrəli elektrik verilişi hava xətti və 3 kilometr uzunluğunda qaz xətti çəkilib.



Ümumi dəyəri 35 milyon manat olan aqroparkın yaradılmasına 9,8 milyon manat məbləğində güzəştli kredit verilib. Burada 41-i daimi olmaqla 150 iş yeri yaradılıb.

Diqqətə çatdırıldı ki, ötən il aqroparkda ümumilikdə 3094 hektar sahədən 20 min 721 ton məhsul - 2240 ton buğda, 1932 ton arpa, 7685 ton dən üçün qarğıdalı, 416 ton birillik ot, 87 ton pambıq, 14 ton soya, 1705 ton qarışıq senaj və 6642 ton digər məhsullar götürülüb. Cari ildə aqroparkda 466 hektar sahədə pambıq, 100 hektarda popkorn, 1177 hektarda qarğıdalı, 146,5 hektarda buğda, 1050,45 hektarda arpa, 10 hektarda isə yonca əkilməsi nəzərdə tutulur.

# “Bu gün gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək”

## Yenidən qurulan 110/35/10 kilovoltluq “Ağcabədi” Yarımstansiyası istifadəyə verilib

*Əvvəli 7-ci səh.*





Bildirildi ki, 40 il əvvəl tikilən və istismar müddəti başa çatan, eləcə də artan tələbatı ödəyə bilməyən 110/35/10 kilovoltluq “Ağcabədi” Yarımstansiyası genişləndirilərək rəqəmsal qaydada tam yenidən qurulub. Yarımstansiyanın gücü 23 meqavolt-amper artırılaraq 126 meqavolt-amperə çatdırılıb. Burada 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək yenidən qurulub.

İşğaldan azad edilən ərazilərə qonşuluqda yerləşən sistem əhəmiyyətli “Ağcabədi” Yarımstansiyasında yeni İdarəetmə mərkəzi tikilib. Müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə, avtomatika sistemləri ilə təchiz olunmuş rəqəmsal İdarəetmə mərkəzində yerli mikro-SCADA dispetçer idarəetmə sistemi yaradılıb. 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular İdarəetmə mərkəzinin daxilində yerləşdirilib. İdarəetmə mərkəzi ilə 110 kilovoltluq açıq paylayıcı qurğu arasında xüsusi hermetik kabel kanalları tikilib.

Dövlət başçısı yarımstansiyanı işə saldı.

Qeyd olundu ki, yenidən qurulan yarımstansiya Ağcabədi şəhərində və rayon ərazisində yerləşən yaşayış məntəqələrini, meliorasiya, sənaye, sosial infrastruktur, ictimai-iaşə və digər obyektləri elektrik enerjisi ilə təchiz edəcək.

## Ağcabədidə Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib



Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağcabədi rayonunda Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edildi ki, uzunluğu 41 kilometr olan və Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd marşrutu üzrə yaşayış məntəqələrinə gedən avtomobil yolu başlanğıcını respublika əhəmiyyətli Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə avtomobil magistralından götürür.

Dövlət başçısının müvafiq sərəncamına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin “Azəryolelmitədqiqatlayihə İnstitutu” MMC tərəfindən avtomobil yollarının V texniki dərəcədən IV texniki dərəcəyə uyğun təkmilləşdirilməsi məqsədilə yol layihəsi hazırlanıb. Layihəyə uyğun olaraq yolun bir neçə marşrut üzrə yenidən qurulmasına start verilib. Bu, Avşar, Salmanbəyli, Aşağı Avşar və Xocavənd kəndlərinə gedən 27,4 kilometrlik, həmçinin Avşar kəndinin 5,6, Salmanbəyli kəndinin 2,9, Aşağı Avşar kəndinin 4,5 və Xocavənd kəndinin 0,6 kilometr uzunluğunda daxili yolları idi.

Layihə çərçivəsində yolda 4 avtobus dayanacağı inşa edilib, yol nişanları və məlumatverici lövhələr, təhlükəsizlik dirəkləri quraşdırılmaqla müasir yol infrastrukturu yaradılıb.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya respublika əhəmiyyətli Ucar-Zərdab-Ağcabədi avtomobil yolunda görülmüş işlər barədə də məlumat verildi.

Bildirildi ki, respublika əhəmiyyətli bu yolun yenidən qurulması işləri sürətlə və keyfiyyətlə başa çatdırılıb. Ucar şəhərinin girişindən başlayan bu yol Ağcabədi şəhərinin cənubunda Mingəçevir-Bəhrəmtəpə avtomobil yoluna birləşir. Layihəyə əsasən, hər birinin eni 3,75 metr olmaqla iki hərəkət zolağından ibarət yolun ümumi eni 15 metrdir. Yolboyu 9 yeraltı keçid, 26 su keçidi, 74 suötürücü boru və 30 avtobus dayanacağı inşa edilib. Həmçinin uzunluqları 20 metrdən 175 metrədək olan 7 avtomobil körpüsünün inşası da uğurla başa çatdırılıb.

Bu avtomobil yolu respublikamızın regionları, o cümlədən Ucar, Zərdab, Ağcabədi rayonları arasında iqtisadi əlaqələrin inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərini əlaqələndirən yol tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında da mühüm rol oynayacaq.

Layihənin icrası həm də yolboyu yerləşən yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafına böyük töhfə verəcək. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, yolların müasirləşdirilməsi bölgələrimizin turizm, kənd təsərrüfatı potensialını da gücləndirir.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağcabədidə DİN-in Daxili Qoşunlarının yeni inşa edilən hərbi şəhərciyinin açılışında iştirak ediblər













Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən nazir Vilayət Eyvazov bildirdi ki, ərazisi 6,2 hektar olan hərbi şəhərciyin inşasına 2019-cu ilin sentyabrında başlanılıb. Tikinti işləri ötən ilin noyabrında uğurla başa çatdırılıb.

Qeyd olundu ki, hərbi şəhərcikdə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi üçün qərargah, 3 əsgər kazarması, zabitlər üçün beşmərtəbəli və ikimərtəbəli 84 mənzilli 2 yataqxana, 2 yeməkxana, tibb, qarovul, texniki nəzarət-buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri mühəndis-kommunikasiya, o cümlədən elektrik və su təchizatı, havalandırma, yanğın-siqnalizasiya, rabitə-informasiya və videomüşahidə sistemləri ilə təchiz edilib.

Binalar zəruri mebel və inventarla təmin edilib, ehtiyat elektrik təchizatı mənbəyi olaraq generator və stabilizator qurğuları quraşdırılıb. Şəhərciyin daxilində və ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Prezident, Ali Baş Komandan hərbi şəhərcikdə qərargah, əsgər yataqxanaları, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, şəhərcikdə xidmətin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və hərbi texnikaya baxdı.

Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Daxili Qoşunların xüsusi təyinatlıları Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Daxili Qoşunlar Daxili İşlər Nazirliyinin ayrılmaz tərkib hissələrindən biri kimi cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm və strateji əhəmiyyətli dövlət obyektlərinin mühafizəsini həyata keçirməyə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.



## Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Rüstəmov Xanlar Kamran oğlu - polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Kazımov Rəşad Vaqif oğlu - polkovnik
Qasımov Elnur Əhməd oğlu - polkovnik
Məmmədov Rövşən Kamil oğlu - polkovnik
İsmayılzadə Ruslan Faiq oğlu - mayor
Musayev Cavid Sabir oğlu - mayor
Şirinov İsrafil Salman oğlu - mayor
Şükürlü Lətif Canbağış oğlu - mayor
Vəliyev Nüsrət Musa oğlu - mayor
Yusifov Ruslan Fərhad oğlu - mayor
Nəsirov Yulət Fəxrəddin oğlu - kapitan
Niftəliyev Habil Cəfər oğlu - kapitan
Əhmədova Aygün Cahil qızı - baş leytenant

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Kərimov Məhərrəm Kərim oğlu
Zeynalov Namiq Bahəddin oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2022-ci il*

## Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dinamik inkişaf yolunda olan Azərbaycan-Serbiya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, müxtəlif sahələrdə səmərəli əməkdaşlığımız münasibətlərimizin məzmununu real şəkildə əks etdirir.

İnanıram ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin, strateji tərəfdaşlığımızın hərtərəfli inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Serbiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2022-ci il*

## Baş nazir Əli Əsədov ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında telefon danışığı olub

Fevralın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında telefon danışığı olub.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Gürcüstanda baş vermiş zəlzələ ilə bağlı narahatlıq və həmrəylik ifadə edilib.

Eyni zamanda Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafı yüksək qiymətləndirilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

## Azərbaycanın və Gürcüstanın xarici işlər nazirləri telefonla danışıblar

Fevralın 14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın xarici işlər naziri David Zalkaliani arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov fevralın 13-də Gürcüstan ərazisində baş vermiş zəlzələ ilə bağlı gürcü həmkarından ölkədə mövcud olan vəziyyəti sorğu edib. Azərbaycanın ehtiyac duyulduğu təqdirdə hər zaman dost Gürcüstana yardım etməyə hazır olduğunu ifadə edib. Gürcüstanın xarici işlər nazir David Zalkaliani zəlzələnin ciddi fəsadlar doğurmadığını söyləyib və nümayiş etdirilən həmrəyliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib.

Nazirlər inkişaf etməkdə olan ikitərəfli münasibətlərin aktual mövzularını, habelə regional məsələləri müzakirə ediblər. Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşıdan gələn aylarda keçiriləcək tədbirlər üzrə fikir mübadiləsi aparıblar.

## YAP Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Tahir Məmmədovun 70 illik yubileyi münasibətilə görüş

Fevralın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Tahir Məmmədovun 70 illik yubileyi münasibətilə onunla görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı və ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Bildirilib ki, Tahir Məmmədov müxtəlif sahələrdə səmərəli və məqsədyönlü fəaliyyət göstərməklə Azərbaycanın ictimai-siyasi həyatında həmişə fəal mövqe tutur. O, əsl ziyalı, vətəndaş və qələm sahibi kimi Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirib.

"Siz məşhur "91-lər"dən biri kimi Yeni Azərbaycan Partiyasının yaradılmasında yaxından iştirak etmisiniz. Hazırda isə YAP Veteranlar Şurasının üzvü olaraq üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığınızı əsirgəmirsiniz. Sizin əməyiniz və xidmətləriniz hər zaman yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adı ilə təltif olunmusunuz", - deyə T.Budaqov qeyd edib.

Yubilyarı doğum günü münasibətilə təbrik edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Tahir Məmmədovu hər zaman prinsipial, möhkəm əqidəli və dəyişməz mövqeyi olan vətəndaş kimi xarakterizə edib.

Göstərilən diqqətə və ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən Tahir Məmmədov Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyduğunu bildirib. O, hazırda Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə partiyamızın inkişafında yeni mərhələnin başlandığını və atılan addımların YAP-ın cəmiyyətdəki mövqeyini daha da gücləndirdiyini söyləyib. T.Məmmədov YAP Veteranlar Şurasının üzvü kimi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini bildirib.

## "Qlobal araşdırmaçı jurnalist və insan hüquqları şəbəkəsinin Azərbaycana qarşı fəaliyyətində erməni faktoru" kitabının təqdimatı keçirilib

Fevralın 14-də Bakıda Sosial Tədqiqatlar Mərkəzinin (STM) təşkilatçılığı ilə Azərbaycana qarşı dezinformasiya mövzusunda hazırlanmış "Qlobal araşdırmaçı jurnalist və insan hüquqları şəbəkəsinin Azərbaycana qarşı fəaliyyətində erməni faktoru" adlı hesabat xarakterli analitik kitabın təqdimatı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə ictimaiyyət nümayəndələri, müxtəlif dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları, siyasətçilər, beyin mərkəzlərinin, QHT-lərin təmsilçiləri, jurnalistlər və sosial media fəalları iştirak ediblər.

Kitabda erməni lobbisinin Azərbaycana qarşı apardığı dezinformasiya şəbəkəsinə və bu şəbəkənin törətdiyi əməllərə etiraz ifadə olunub.

Tədbiri giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzinin idarə heyətinin sədri Zahid Oruc bildirib ki, informasiya savaşı Vətən müharibəsinin tərkib hissəsidir. Bu ideyaya xidmət edən və təqdimatı keçirilən "Qlobal araşdırmaçı jurnalist və insan hüquqları şəbəkəsinin Azərbaycana qarşı fəaliyyətində erməni faktoru" kitabı yeni informasiya əsrində və postmüharibə dövründə rəqəmsal inqilab, texnoloji inkişaf və süni intellekt platformalarından ölkəmiz əleyhinə sistemli informasiya terrorunu həyata keçirən qrupları təyin etməyə imkan verir, sifarişçiləri, iştirakçıları, maliyyələşmə mənbələrini və coğrafiyasını müəyyənləşdirir, yeni çağırış və həll yollarına işıq salır.

Aparılan tədqiqatda Azərbaycan xalqının ordu və dövlətimizlə birliyini, parlaq Qələbəmizi təmsil edən Prezident İlham Əliyevin qlobal "araşdırma" şəbəkəsinin ardıcıl hədəfinə gəlməsində erməni amilinin yeri və rolu peşəkarlıqla təhlil edilir, 44 günlük Vətən müharibəsində hərbi meydanda məğlub olan qüvvələrin informasiya savaşında total hücuma keçməsinə dair faktlara, "səlibçi jurnalist"lərin haker yürüşlərinin mahiyyətinə aydınlıq gətirilir.

Z.Oruc deyib ki, yeni geosiyasi rəqabətin və informasiya əsrinin çağırışları rəqəmsal inqilab resurslarını və sosial şəbəkələri hibrid müharibənin əsas alətinə çevirib. Xatırladıb ki, müstəqil jurnalist Culian Assancın "Wikileaks" hadisəsi yeni informasiya müharibəsi kanallarına ehtiyacı daha da artırdı. Qlobal informasiya məkanına nəzarət etməyə və milli dövlətlərin rəqəmsal-informasiya suverenliyini parçalamağa çalışan qüvvələr "müstəqil virtual dövlətlərə" çevrilən informasiya texnologiyaları şirkətləri ilə birləşərək yeni ideoloji kursu elan etdilər: qədim Romada "parçala və hökm sür" siyasəti XXI əsrin rəqəmsal çağırışlarına uyğunlaşaraq, idarə olunan xaosun yeni şüarı "Sındır. Sızdır. Parçala" şəklində irəli sürülüb.

Sadalanan prinsiplərə nail olan, dünya gündəmini formalaşdıran texnologiyaların təminatçıları, "Hi-Tech" və sosial şəbəkə nəhəngləri sırasında indi təkcə soroslar, NED-lər və NDİ-lər deyil. Onlardan daha üçünün adını xüsusilə çəkmək olar - araşdırmaçı jurnalizmi qlobal miqyasda təşkilatlandıran, transmilli şəbəkəsini yaradan e-bay elektron ticarət platformasının sahibi Pyer Omidiyar, Araşdırmaçı Jurnalistlərin Beynəlxalq Konsorsiumunun rəhbərlərindən biri Aleksandr Papaxristo, dünyaşöhrəti qazanmasında Bakının müstəsna roluna qisasla cavab verən İnsan Hüquqları Fondunun rəhbəri Harri Kasparovdur.

Beləliklə, yeni missiyası "Xüsusi Tapşırıqla Araşdırma" adlanan transmilli şəbəkənin "ofşor qalmaqalları" silsiləsi, məlumatların sındırılması, sızdırılması bir vaxtlar Amerikada ilk araşdırma olan daxili "Pentagon papers"dən xarici hədəfli "Pandora papers"ə qədər inkişaf etməyə başladı. Araşdırmaçı jurnalistika adı altında 2006-cı ildə yaranan qlobal miqyaslı "Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi" artıq 80 ölkədə 160 jurnalisti birləşdirir.

"Hamısı "P" hərfi ilə başlayan, mənbələri heç vaxt açıqlanmayan "ofşor dosyeləri" yayanlar içərisində adları jurnalist, reallıqda isə developer-hakerlərin "Panama", "Paradise", "Pandora sənədləri", "Pegasus" adlı məlumat sızdırma fəaliyyəti konkret ölkələrdə müstəqil siyasət yürüdən iqtidarlara qarşı təzyiq silahıdır, əsas xammalı saxta xəbər olmaqla yazıçı Corc Oruelin "böyük televizor"undan ölkələri təsir dairələrində saxlamaq vasitəsidir. Siz hesabatda həmin 4 "P" adlı planların hansı mexanizmlə yalanı həqiqət kimi tirajladığına dair faktları görəcəksiniz", - deyə Zahid Oruc vurğulayıb.

O deyib: "Elə isə sual olunur: Bəs nə üçün Azərbaycan qlobal şəbəkənin hədəfindədir?"

Bu suala regional və beynəlxalq sirləri daha yaxşı bilən Prezident İlham Əliyev dəqiq cavab verir-sitat: "Bizi iradələrinə tabe etdirmək istəyirlər". Media nümayəndələrinə son müsahibədə və 2 fevralda gənclərlə görüşdə ölkə rəhbəri əvvəlki dünya siyasi arxitekturasının çökdürüldüyünü və yenisinə ölkəmizin hazır olduğunu bəyan etdi. Bir sözlə, beynəlxalq şantajın səbəb və hədəfləri təkcə biz deyilik. İnformasiya hücumları həm də Avropa ölkələrinə, Türkiyəyə, keçmiş sovet respublikalarına qarşı da eyni təhdidləri yaradır. Xatırlatmaq yerinə düşər ki, 2016-cı ildə "Cambridge Analytica" şirkətinin xüsusi alqoritmlər vasitəsilə milyonlarla insanın məlumatlarını əldə etməsi rəqəmsal hücumlar və kibertəhlükələr mövzusunu xeyli ictimailəşdirdi. Ona görə də 2016-cı ildə "posthəqiqət" (post-truth) ifadəsi "Oxford dictionary" tərəfindən "ilin sözü" elan olundu. İndi dünyada dəyərsizləşdirilən siyasi ideallar - demokratiya və azadlıq haqda billər rəqəmsal despotizmin və faşizmin dekorasiyasına çevrilib.

Bəli, bu gün, Vətən müharibəsindən məğlubiyyətlə çıxan dünya erməniləri, Qərb mediasının siyasi korrupsiyaya uğrayan dairələri və onların yerli uzantıları tərəfindən Azərbaycana qarşı sistemli dezinformasiya daha da intensivləşib. Qarabağı itirənlər kibermәkanda kütlələri və siyasi beyinləri ələ alır. Halbuki informasiya məkanı coğrafi ərazimizin ayrılmaz tərkib hissəsidir. İqtisadi-siyasi azadlığımız kimi, informasiya müstəqilliyi də suverenliyimizin bir parçasıdır. Təsadüfi deyil ki, Avropa Birliyi 500 milyona yaxın vətəndaşını qorumaq üçün onlarla qanun və proqram qəbul edib, sərt şəkildə onlara əməl edir. Qlobal şəbəkələrin saxta informasiya hücumuna fasiləsiz məruz qaldığı hazırkı posthəqiqət dövründə Prezidentin birnömrəli informasiya xüsusi təyinatlısı kimi apardığı mübarizə, Vətən müharibəsində sistemli hücumlara, saxta xəbər yayan qüvvələrə qarşı informasiya səngərinin önündə getməsinin parlaq sübutu tarixi 33 müsahibədir".

STM-in İdarə Heyətinin sədrinin sözlərinə görə, indi cəmiyyətlər elə bir maskimallığa öyrədilib ki, sensasiya və şok, qarşıdurma və kütləvi qaralama, linç və siyasi ləkələmə gündəlik tələbat malına çevrilir, real fakt və xəbərin qəbulu get-gedə çətinləşir. Pandemiyanın yaratdığı gərgin mühitdə ayrı-ayrı fərdlər, sosial baxımdan həssas və narazı qruplar daha təhlükəli viruslara - infodemiyaya məruz qalır. İctimai rəydə yaradılan saxta siyasi qənaət və emosional reaksiyalar digər media kanalları və şəbəkələr tərəfindən tirajlanaraq normalaşdırılır, nəticədə hədəf kütlə faktlar və reallıq yerinə, eşitmək istədiyi abstrakt gerçəkliyi seçir. Qlobal şəbəkə virtual Azərbaycanı real Azərbaycanla konfliktə sürükləyir.

Göbbelsin "min dəfə təkrarlanan yalan həqiqətdir" devizi XXI əsrin reallığında rəqəmsal faşizm və despotizmin fonunda daha yaxşı işləyir.

"Dövlətimizin başçısının qlobal tribunalarda çıxışları bu müharibəyə qarşı aşkar müqavimətdir. Münxen Təhlükəsizlik Konfransında Prezidentin nitqini yaxşı xatırlayırıq. Ondan sonra baş verənlər pərdəarxası ssenarini görməyə imkan verir. Malta jurnalistinin işində ölkəmizi günahlandıranlar, onun övladları üçün şəbəkə təsis edənlər "Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi" çərçivəsində həyata keçirilən planlardır. İnformasiya müharibəsinin növbəti əməliyyatı - ölkəmizə qarşı böhtançı mövqeyinə görə Bakıda qısamüddətli həbsdə olan, Azərbaycanın məhkəməyə verdiyi adam üçün ayrıca "Forbidden stories" layihəsi də bir güc mərkəzindən idarə olunan, saxta məlumatların müxtəlif şəbəkə adları altında "ictimailəşdirilməsi"dir. Beləliklə, qlobal informasiya hücumunun 4 "P" (Panama, Paradise, Pegasus və Pandora) hərfindən sonuncu əməliyyatı bu gün də davam edir. Dünya erməniliyinin Qarabağdakı məğlubiyyətin revanşını informasiya cəbhəsinə daşıması və qlobal şəbəkənin rəhbərliyinə sızması, yüksək ranqlarda təmsilçiliyi inkaredilməz faktdır.

Beləliklə, 30 il əvvəl olduğu kimi, balayanları, yaxud aqenbekyanları daha təhlükəli papaxristolar, omidyarlar, kasparovlar əvəzləyib. Sabiq prezident Armen Sarkisyanın dediyi "ermənilər kiçik dövlət, dünyəvi millətdir" devizi altında saxta xəbər sənayesi bum dövrünü yaşayır. Bəşəriyyət "Omikron"la yanaşı, infodemiyadan əziyyət çəkir", - deyə o vurğulayıb.

Z.Oruc diqqətə çatdırıb ki, bir beynəlxalq sosioloji rəyə görə, respondentlərin 37,3 faizi sosial mediadan aldığı məlumatların doğruluğunu yoxlamır və belə cəmiyyətin potensial risklərə hazırlıqsız olduğu şübhə doğurmur. İnformasiya hücumlarında irəli sürülən ittiham və "faktlar"ın mənbəyinin etibarlı olmamasına dair İsveçrə Texnologiya İnstitutunun tədqiqatında Türkiyədə "Tviter" platformasında trendə çevrilən informasiyaların 47 faizinin, qlobal gündəmin 20 faizinin saxta hesablar və ya botlar tərəfindən sıfırdan uydurulduğu təsdiqlənib. Beləliklə, hərbi meydanla müqayisədə daha amansız və dağıdıcı xarakterə malik hibrid müharibəsi gedir. Gerçək döyüş meydanında olduğu kimi onların hədəfi ilk növbədə Azərbaycan dövləti ilə identikləşən birinci şəxsdir, Qələbənin simvolu olan Ali Baş Komandandır. Qələbədən sonra Prezident İlham Əliyevin nüfuzu region xalqları arasında da, dünyanın bir çox bölgələrində də artıb. Hamı yaxşı başa düşür ki, siyasi nüfuz böyük hərbi, iqtisadi, maliyyə gücü və təsir dairəsinin genişlənməsi deməkdir. Şübhəsiz, məğlub ölkəni son iki ilədək təhlükə kimi görmürdülər, lakin qalib dövlət qlobal erməniliyi, onları milli mənsubiyyətinə görə deyil, maraqlarına görə idarə edən güclərin arzulanan müttəfiqinə çevirir. Belə qlobal müttəfiqlik fonunda, işğalı təkcə hərbi meydanda deyil, beynəlxalq təşkilatların və siyasi lobbi qruplarının müdafiə etdiyi şəraitdə Zəfəri qazanmağın nə demək olduğunu hamı daha yaxşı anlayır!

"Biz, əlbəttə, erməniçiliyi dünya gücü elan etməyə toplaşmamışıq, əsla, lakin bir sıra Qərb dövlətləri, onların qlobal siyasət alətlərini bilməliyik. Bu məsələdə hibrid hücum aparanların səngərinə keçib hakimiyyət əleyhinə vuruşan qüvvələr silahlı döyüş meydanında millətimizə qarşı atəş açanlarla eyni işi görürlər. 27 ildə yaşadığımız atəşkəsdən fərqli olaraq, informasiya müharibəsində heç vaxt atəşkəs olmayıb. Halbuki indi dövlət rəhbəri nəinki Ermənistana, eləcə də bütün erməniçiliyə sülh təklif edib, lakin qlobal şəbəkəni barış düşündürmür. Ona görə də bizim reaksiyamız assimetrik, sərt və dəqiq olmalıdır. Onların nəhəng sərvətləri, ağlasığmaz məxfi və hibrid texnologiyaları, qlobal informasiya məkanına diktə edən müxtəlif növ kütləvi media resursları olsa da, qlobal araşdırmaçılara qlobal Qələbəmizdəki birlik nümunəsi ilə cavab verməliyik. Ərazi bütövlüyümüz uğrundakı birlik və həmrəyliyi informasiya suverenliyində, kibervətənin müdafiəsində də göstərməliyik. Ümidvarıq ki, yeni milli təhlükəsilzik konsepsiyasında hibrid təhdidlərin dairəsi daha da geişləndiriləcək", - deyən idarə heyətinin sədri "Qlobal Araşdırmaçıları" ifşa edən kitabın başlıca ideyasına söykənərək, ölkəmizdə ekspertlər, araşdırmaçı jurnalist və media sahəsində analitiklərdən ibarət "Dezinformasiya ilə Mübarizə və Kommunikasiya Mərkəzi"nin yaradılmasını təklif edib. Deyib ki, xalqımıza düzgün, obyektiv və gələcəyini qurmağa kömək edən informasiya məkanı hava-su kimi lazımdır. Posthəqiqət dövründə ümummilli hədəf dezinformasiyaları neytrallaşdırmaq, bütün saxta faktlara həqiqəti qarşı qoymaqdır. Təkcə media məkanımızda qeyd olunan halın daim vurğulanması və cəmiyyətimizin, dünya azərbaycanlıların, səfirlik və diplomatik korpusların bu savaşın mahiyyətini düzgün müəyyən etməsi öz müsbət nəticələrini verəcək. 44 günlük savaşda olduğu kimi, Vətəninin müdafiəsini genişləndirib, hava və dəniz məkanı kimi rəqəmsal coğrafiyamızı, kibervətəni də 44 günlük Zəfərdəki kimi qorumalıyıq. Bu, həm də müqəddəs Şuşanın müdafiəsi deməkdir.

Sonra mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli qeyd edib ki, Vətən müharibəsində nümayiş etdirilən həmrəyliyi, birliyi postmüharibə dövründə də davam etdirməliyik. "Dezinformasiya və milli təhlükəsizliyə təhdidlər: hüquqi-qanunvericilik sahəsində mövcud çağırışlar" mövzusunda fikirlərini bölüşən parlament sədrinin müavini qeyd edib ki, informasiya inqilabı, sosial şəbəkələr və dezinformasiya fenomeni bir çox ölkələrdə hüquqi-qanunvericilik sahəsində çox ciddi çağırışları meydana çıxarıb. Suveren dövlətlərin informasiya məkanı çoxsaylı təhdid və təzyiqlərə məruz qalır. Bununla yanaşı, adekvat milli qanunvericiliklərin işlənib hazırlanması prioritet məsələyə çevrilib. Bu məsələ dövlət atributlarından, fundamental insan, mülkiyyət hüquqlarından tutmuş bütün sahələri əhatə edir. Yeni yaranan və sürətlə inkişaf edən rəqəmsal kriptovalyutalar, onların milli iqtisadi və siyasi təhlükəsizliyə təhdidləri isə ayrı istiqamətdir. Sadalanan bu və digər məsələlər bütövlükdə kibertəhlükəsizliklə bağlı olmaqla yanaşı, milli təhlükəsizliyin önəmli sahələrindən birini təşkil edir.

Yeni qəbul edilən "Media haqqında" qanunun cəmiyyətə və dövlətə töhfə verəcəyindən əminliyini bildirən Əli Hüseynli vurğulayıb ki, cəmiyyətin iradəsi dövlətin iradəsi ilə birləşəndə daha güclü oluruq.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən bu il yanvarın 1-dən bu günədək 126 saxta səhifənin yoxlanılması həyata keçirilib. Məhz bu səhifələr üzərindən yalan informasiyalar paylaşılır.

"Dezinformasiya və kibertəhlükəsizlik: strategiya və kontrstrategiyalar" mövzusu ətrafında fikirlərini bildirən nazir müavini vurğulayıb ki, dezinformasiyaya qarşı mübarizə aparmaq üçün cəmiyyətin bütün təbəqələri birgə çalışmalıdır. "44 günlük müharibə zamanı düşmənin təxribatları sonsuz qədər idi. Onların şikayətləri nəticəsində bir çox vətəndaşımızın hesabları bağlanmışdı. Ancaq bizim müdaxiləmiz və müraciətimiz nəticəsində 159 tanınma nişanının alınması təmin edildi", - deyə o qeyd edib.

Nazir müavini bildirib ki, bu gün informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, informasiya axınının sürətlənməsi və yeni informasiya ekosisteminin formalaşması dezinformasiyaya olduqca münbit şərait yaradır. Sevindirici haldır ki, hazırda ölkəmiz kibertəhlükəsizlik baxımından bir çox inkişaf etmiş ölkələrdən öndədir. Belə ki, Beynəlxalq Telekommunikasiya İttifaqının sonuncu "Qlobal kibertəhlükəsizlik indeksi" hesabatına əsasən, Azərbaycan reytinqdə mövqeyini 15 pillə yaxşılaşdıraraq 40-cı yerdə qərarlaşıb.

O, həmçinin qeyd edib ki, dezinformasiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən digər bir mövzu onlayn xəritə platformalarında ölkəmizə məxsus müxtəlif coğrafi adların, o cümlədən işğaldan azad edilmiş ərazilərin adlarının məqsədli şəkildə dəyişdirilməsi halları ilə əlaqədar bu platforma inzibatçılarına müraciətlər edilib, coğrafi adların bərpasına nail olunub. Həmçinin nazirlik tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə təhrif edilmiş formada istinad edən xəritələrdən istifadə hallarının qarşısının alınmasına dair Tədbirlər Planı" layihəsi hazırlanıb.

"Günümüzün reallıqlarından biri də hibrid müharibədir" deyən UNEC Tədqiqat Fondunun media və dövlət strukturları ilə iş üzrə departament rəhbəri Ellada Əliyeva qeyd edib ki, burada yalnız informasiya müharibəsi deyil, milli dövlətlər hədəfə çevrilir. "Strateji kommunikasiyalar hibrid təhlükələrə qarşı mübarizədə əsas amil kimi" mövzusunda fikirlərini bölüşən E.Əliyeva diqqətə çatdırıb ki, hibrid müharibədə hədəf auditoriyalarından və hibrid həmlələrinin obyekti seçilən altqruplardan istifadə olunur. Beyin mərkəzlərinin fəaliyyətinin daha da artırılmasının vacibliyini vurğulayan natiq qeyd edib ki, kommunikasiya şəbəkəsinin yaradılması çox vacibdir.

Departament rəhbəri qeyd edib ki, sürətli internet, rəqəmsallaşma bu günün gerçəklərinə qlobal müstəvidə öz təsirini göstərməkdədir. Hibrid müharibələr və onların sürətli inkişafı da artıq danılmaz reallığa çevrilib. Rəqəmsal cihazların bazar payının artım tempi, alqoritmlərin optimizasiyası hibrid hücumların daha da təkmilləşməsinə şərait yaradır. Belə olan təqdirdə milli dövlətlərin qarşısında qeyd olunan hücumları təyin etmək, onları öyrənmək zərurəti yaranır. Hibrid qarşıdurmalar sahəsində yaranan təhdidlər və problemlərin həlli yollarına beyin mərkəzlərinin və dövlət qurumlarının birgə fəaliyyətini ehtiva edən ekosistem çərçivəsində nail olmaq mümkündür".

"Cəmiyyətdə rəqəmsal savadlılıq və dezinformasiyaya qarşı mübarizədə onun əhəmiyyəti" mövzusuna toxunan ADA Universitetinin prorektoru Fariz İsmayılzadə vurğulayıb ki, hibrid müharibəyə qarşı mübarizə aparmaq yeni yanaşmalar və fəallıq tələb edir.

Ölkədə fəaliyyət göstərən ingilisdilli jurnalistlərə təlimlər keçməyin, dünyanın nəhəng media orqanlarının işi ilə tanış olmağın, təcrübələrindən yararlanmağın lazım olduğunu deyən prorektor bildirib ki, beyin mərkəzlərində tədqiqatçıların sayının və peşəkarlığının artırılması çox vacibdir.

STM-in İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova "Ölkəmizə qarşı qlobal dezinformasiya şəbəkəsində erməni faktoru" adlı məruzə ilə çıxış edib.

Çıxışda ermənilərin, erməni diasporunun, çoxsaylı ölkələrdəki 2-3-cü nəsil ermənilərin, Ermənistanın dostu olan ölkələrin və erməni diasporunun muzdlularının revanşizm strategiyası ətrafında səfərbər edilməsi planının çox intensiv fazaya daxil olduğu faktlar əsasında təqdim edilib.

Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, siyasi şərhçi, tanınmış jurnalist Nurani, Topçubaşov Mərkəzinin rəhbəri Rusif Hüseynov və başqaları müxtəlif mövzularda çıxış edərək kitabda yazılanlarla bağlı fikirlərini ifadə ediblər. Qeyd olunub ki, feyk xəbərlər dezinformasiyalardan köklü şəkildə fərqlənir. Dezinformasiyalar diqqətsizliyin və yaxud xoşniyyətli insan yanılmasının nəticələridir. Feyk xəbərlər isə tamamilə anlaşıqlı formada, xüsusilə siyasi kampaniyaların bir hissəsi kimi, tamamilə gələcəkyönümlü məqsədlər üçün dövriyyəyə buraxılır.

Vurğulanıb ki, hesabatda insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların Azərbaycan əleyhinə qərəzli münasibətinin dərindən araşdırılması, erməni amilinin burada da kök salması, maskalanması və olduqca fəallaşması ilə bağlı məlumatlar faktlar əsasında toplanıb.

Tədbir müzakirələrlə davam edib.






# Gənclik






● Dövlət gənclər siyasəti



# Milli-mənəvi dəyərlərimiz qorunub saxlanmalıdır

## Prezident İlham Əliyev Gənclər Forumunda buna xüsusi önəm verilməsini vacib bildi

**Dövlət müstəqilliyinin ilk illərində gənclərin enerji və potensialını milli maraqların müdafiəsinə səfərbər edən Ümummilli Lider Heydər Əliyev bununla onların vətənpərvərlər ruhunda formalaşmasına zəmin yaratdı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin Birinci Forumunda Ulu Öndər ölkə gəncləri qarşısında mühüm tarixi vəzifələr müəyyənləşdirdi.**

Prezident İlham Əliyev isə 2003-cü ildən başlayaraq gənclər siyasətinin inkişaf istiqamətlərini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı dövlət proqramları qəbul edildi, 2007-ci il "Gənclər ili" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı. 2013-cü ildə respublikada ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis edildi. Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndikdən sonra gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Vətən müharibəsində də əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Fevralın 2-də Bakıda, Gülüstan sarayında gənclərlə keçirilən Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Forumda dövlət başçısı fikirlərini bölüşərkən bir daha qeyd etdi ki, milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir: "... Mən dəfələrlə demişəm ki, müasir və müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq. Biz tariximizi yaxşı bilirik və bilirik ki, uzun illər, əsrlər boyu Azərbaycan müstəqil deyildi, başqa ölkələrin tərkibində yaşayırdı. Ancaq buna baxmayaraq, öz milli xüsusiyyətlərini itirmədi, milli xüsusiyyətlərini qorudu. Nəyə görə? Məhz ona görə ki, biz həmişə öz milli dəyərlərimizə sadiq olmuşuq, ənənələrə sadiq olmuşuq, onları qorumuşuq. Baxmayaraq ki, məsələn, əgər sovet dövrünü nəzərə alsaq, o vaxt marksizm-leninizm ideologiyası hökm sürürdü. Ancaq buna baxmayaraq, qapalı bir cəmiyyətdə yaşamağımıza baxmayaraq, hər bir Azərbaycan ailəsində bizim milli bayramlarımız qeyd edilirdi. Biz nəsildən-nəslə əsrlər boyu bu milli ideologiyamızı, milli xüsusiyyətlərimizi ötürürdük və beləliklə, özümüzü assimilyasiyadan qoruyurduq, kənar təsirdən qoruyurduq. Azərbaycanlılar həmişə dünyaya açıq olublar, amma öz mənəvi kodeksini həmişə hər şeydən üstün tutublar. Bir halda ki, azad olmadığımız dövrdə, əsrlər boyu həm müstəmləkə, həm başqa ölkələrin tərkibində yaşadığımız dövrdə əgər biz bu dəyərləri qoruyub saxlamışıqsa, indi əlbəttə, biz bu dəyərləri qoruyub saxlamalıyıq..."

Vətən müharibəsi iştirakçısı, gənclər üçün Prezident mükafatçısı, Heydər Əliyev Fondunun layihə koordinatoru və Hərbi Qənimətlər Parkının meneceri, 24 yaşlı Orucəli Abbaszadənin dövlət başçısına ünvanladığı suala cavab da çox maraqlı oldu: Milli ruhda yetişən bu gənclər bundan sonrakı dövrdə hansı addımlar atmalıdır ki, mənfur düşmənin Azərbaycan xalqının başına gətirdiyi bu bəlalar bir də təkrarlanmasın və müasir Azərbaycan gənci nələr etməlidir ki, ölkəmizin inkişafı üçün daha çox töhfə vermiş olsun?

Azərbaycanda 29 yaşına qədər insanların gənclər sayıldığını vurğulayan dövlət başçısı öncə qeyd etdi ki, bu gün ən yaşlı gəncin mən Prezident vəzifəsinə birinci dəfə seçiləndə 11 yaşı var idi: "Yəni bu reallıqdır. Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi..."

Qarşıda mühüm vəzifələrin dayandığını vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, bu gün dövlətimiz müstəqildir. Heç bir kənar qüvvə onun işinə qarışa bilməz. Əlbəttə, belə cəhdlər olub, lakin heç bir nəticə verməyib. Ancaq elə məsələlər var ki, gənclərimiz bundan sonra da mütləq vətənpərvərlik əsasında tərbiyə edilməlidir. Bu da qarşıda duran mühüm məsələlərdəndir. Vətənə bağlılıq, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur.

Yeri gəlmişkən, Prezident bu məsələ ilə bağlı fikirlərini bölüşərkən yeni çağırışlara da toxunaraq qeyd etdi ki, qloballaşma termin olaraq indi dünya leksikonundan çıxarılır. Çünki bu cərəyana qarşı dünyada geniş müqavimət göstərilib. Ancaq ideya kimi hələ də qalmaqdadır. Təəssüf ki, qloballaşma bu gün başqa ad altında kök salır. Bu meylin əsas məqsədi müxtəlif ölkələrin daxili işlərinə qarışmaq, insanları, xüsusilə də milli kökdən uzaq salınmış gəncləri yetişdirməkdir. Bu isə çox təhlükəli tendensiyadır. Belə demək mümkünsə, məqsəd qalır, forma və mübarizə üsulları dəyişir.

Dövlət başçısının qeyd etdiyi kimi, bu gün cəmiyyətimiz və Azərbaycan iqtidarı birmənalı şəkildə milli maraqların keşiyində dayanır: "... Mən Azərbaycan Prezidenti kimi sona qədər milli dəyərləri müdafiə edəcəyəm, dövlət müstəqilliyimizi müdafiə edəcəyəm. Yəni müstəqillik deyəndə mən atributları nəzərdə tutmuram - real müstəqillik. Sən real müstəqil siyasət apara bilirsən, yoxsa yox? Yoxsa kiminsə sözü ilə oturub-durursan, kiminsə qarşısında baş əyirsən. Azərbaycan heç vaxt bütün bu cəhdlərə əməl etmir, əksinə, biz bütün meydanlarda vuruşmuşuq və qalib gəlmişik.

Ancaq gənclər, əlbəttə ki, daha tələbkar olur, onlar həyata yeni başlayır. Açıq deməliyəm, gəncləri əyri yola gətirmək, yaxud da yoldan çıxarmaq daha asan olur. Ona görə də bax, bu qloballistlərin - mən onları şərti olaraq belə adlandırıram - sorosçuların məqsədi məhz gənclərdir. Ona görə fondlar yaradılır, o fondların xətti ilə ianələr verilir, müxtəlif yaxşı, gözəl məna daşıyan proqramlar altında məhz bu dağıdıcı missiya həyata keçirilir ki, gəncləri öz dövlətinə qarşı, ilk növbədə, öz əcdadlarına, öz tarixinə qarşı, öz dəyərlərinə qarşı qaldırsınlar və sonra onlardan zombi kimi istifadə etsinlər. Bizim gənclərimiz bunu bilir və mən dəfələrlə müxtəlif forumlarda, həm gənclərlə təmaslar əsnasında, həm müxtəlif çıxışlarda bu məsələyə toxunurdum. Çünki bu, aktual məsələdir və bu məsələ aktuallığını heç vaxt itirməyəcək. Bu siyasətin mənbələri dəyişə bilər, bu, dünyada geosiyasi vəziyyətə bağlıdır, bəzi güc mərkəzləri güclənir, bəziləri zəifləyir. Ancaq, sözün düzü, mən onların arasında niyyət nöqteyi-nəzərindən böyük fərq görmürəm və mənim iş təcrübəm bunu deməyə əsas verir..."

Azərbaycan Prezidenti bildirdi ki, milli dəyərlər təkcə əcdadlar qarşısında mənəvi borcumuz deyil, eyni zamanda ölkəmizi daim müstəqil saxlamaq, kənar təsirdən qorumaq və nəsillər arasındakı o mənəvi telləri qorumaq üçün mütləq lazımdır. Çünki çox zəngin mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, ana dilimiz var. Ana dilimiz də milli dəyələrin tərkib hissəsidir. Xalqımız ana dilini varlığı kimi qoruyub. Lakin onu daim qorumaq yeni nəsillərin də borcuna çevrilməlidir.

Dövlət başçısı bu baxımdan həm televiziya məkanında, həm də mətbuatda dilimizə yad sözlərin müdaxiləsindən narahatlığını da ifadə edərək bildirdi ki, hər bir dil, əlbəttə ki, inkişaf etməlidir, amma milli köklər üzərində. Bizim dilimiz o qədər zəngindir ki, kənar sözlərə ehtiyac yoxdur: "...Bütün bu amillər, o cümlədən bizim bayramlarımız, adət-ənənələrimiz hər birimiz üçün əsas dəyər olmalıdır. Bax, belə olsa, Azərbaycan həmişə müstəqil olacaq və həmişə uğur qazanacaq..."

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Danışır qazilərimiz

# Vətən uğrunda şəhadətə yüksəlmək də şərəfdir

**Həyata bir dəfə gələn hər kəs ayağını möhkəm basdığı torpağın Vətən olduğunu dərk etməlidir. Sevindirici haldır ki, son illər xalqımızın və dövlətimizin yetişdirdiyi gənclərdə bu vətənpərvərlik özünün elə bir zirvəsinə ucaldı ki, dünya da buna heyran qaldı...**




Min, bəlkə də milyon illər torpaq uğrunda qanlı-qadalı müharibələr olub. Kim qalib olubsa, onu mühakimə etməyiblər! Təəssüf ki, bəzən burada da haqsızlıqlar olur. Məsələn, 30 il öncə Qarabağımıza diş qıcıyan erməni daşnaklarına layiq olduqları cavabı verə bilmək imkanımız olmadığı üçün tarixi torpaqlarımız işğala məruz qalmışdı. Dünya isə buna susur, dolayası yolla işğalçılıq siyasətini pisləsələr də, Ermənistana hər hansı cəza verilmirdi.

Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qeyd etdiyi kimi, hər şeyin zamana ehtiyacı var. Bəli, zamanı gəldi və biz düşmənə öz yerini göstərdik: tarixi ərazilərimizi işğaldan azad etdik. Dünyaya göstərdik ki, Vətən üçün doğulanlar hər qarış torpaq uğrunda candan-qandan keçməyə hazırdırlar.

Mən də bunun canlı şahidiyəm. 30 aprel 2001-ci ildə Xırdalan şəhərində dünyaya göz açmışam. Orta təhsilimi Binəqədidəki 217 saylı tam orta məktəbdə aldım. 30 aprel 2019-cu ildə həqiqi hərbi xidmətə çağırıldım. Dövlət Sərhəd Xidmətində Vətənə borcumu ödəməyə başladım. Əsgər kimi hərbi hissə komandiri tərəfindən verilən tapşırıqların vaxtlı-vaxtında yerinə yetirilməsində göstərdiyim fəallığa görə ailəmizə təşəkkür məktubu və fəxri fərman da göndərilib.

...Düzü, əvvəllər, hərbi xidmətdən öncə ailənin tək oğlu olduğumu düşünürdüm. Lakin 44 günlük Vətən müharibəsində hiss etdim ki, mənim kimilər tək deyillər. Hamımızın arxasında dövlətimiz, yanında doğma qardaş qədər səmimi olan vətən mücahidləri var. Bu birliklə, qardaşlıqla Qarabağımızı düşmən tapdağından azad etdikcə qürurlanır, döyüşlərin ən qaynar nöqtəsinə can atırdıq.

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Qubadlı rayonunun işğaldan azad olunmasında düşmən snayperi ilə vurularaq, sol dizimdən yaralanmışam. Hazırda II qrup əliləm. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Cəbrayılın, Qubadlının azad edilməsinə və "Hərbi xidmətə görə" medalları ilə təltif olunmuşam.

Döyüşçü dostlarım hər qarış torpağımız uğrunda can-başla vuruşurdular. Taborumuzun şəhidi, baş leytenant Nəsirov Elməddin Süleyman oğlu Hadrut, Cəbrayıl, Zəngilan,Qubadlı döyüşlərində iştirak edib. Laçın ərazisində xidməti vəzifəsini yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

2020-cil il oktyabrın 21-də yaralandığım vaxt Dövlət Sərhəd Xidmətinin Hərbi Hospitalında peşəkar həkimlərimiz sayəsində ağır əməliyyat keçirdim. Mənə o ağır günlərimdə dəstək olan, müalicəmlə maraqlanan və köməklərini əsirgəməyən DSX-nın rəhbərlərinə minnətdaram.

Vətənin sərhəddən başlanması heç də təsadüfi deyil. Bu gün də sərhədçilərimiz düşmənlə üzbəüz dayanıb Vətənimizin keşiyini çəkirlər. Onlar yaxşı bilirlər ki, qarşıda düşmən dayansa da, arxada onları sevən xalq, Müzəffər Ali Baş Komandan və güclü dövlətimiz dayanıb!

***Xəqani MURADOV,***
***Xırdalan şəhəri,***
***Vətən müharibəsi qazisi,***
***II qrup əlil***

● Tribuna

# Dövlətə xidmət vətəndaşlıq borcumuzdur

**1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda şəxsən Heydər Əliyevin iştirak etməsi və proqram xarakterli çıxışı sonrakı illərdə gənclərin fəaliyyət istiqamətini müəyyən etdi. Bir il sonra forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Heydər Əliyev fevralın 2-ni Azərbaycanda Gənclər Günü elan etdi.**

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və müstəqilliyimizin şüurlu dərk edilməsi, dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətədavamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışın təşviqini zəruri edən yeni təsirli formaların tətbiqində gənc nəslin fəal iştirakını dəstəkləmək məqsədilə bir sıra dövlət proqramları icra olunur.

44 gün davam edən İkinci Qarabağ müharibəsi rəşadətli Azərbaycan Ordusunun qüdrətini bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyuldu və ölkəmizin ərazi bütövlüyü təmin olundu. Bu müharibədə xalqımızın həmrəyliyi, xüsusilə gənclərimizin göstərdiyi şücaət gələcək nəsillər üçün hərbi vətənpərvərlik məktəbinin bariz nümunəsinə çevrildi. Bu haqq savaşımızda qəhrəmanlıqları ilə tarix yazan şəhidlərimizin xatirəsinə hörmətlə, Vətənin müdafiəsində sağlamlığını itirmiş insanlara diqqət və qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur.

Böyük fərəh hissi keçirirəm ki, düşmən işğalından azad olunmuş doğma torpaqlarımızı ziyarət etdim. İlk səfərim Şuşa şəhərinə oldu. Hər zaman xəyal etdiyim, Qarabağın zümrüd tacı olan bu cənnət məkanda olmaq məni qürurlandırdı. Doğma Şuşamızda Gövhər ağa məscidində uca Allaha şükür edərək şəhidlərimizin ruhuna dualar oxuduq. Bərəkət rəmzi olan Qala çörəyindən dadaraq Xan qızı bulağında əl-üzümüzü yuduq, İsa bulağının suyundan içdik. Cıdır düzündən Daşaltı dərəsinə açılan gözoxşayan mənzərələrə baxaraq, "Qarabağ şikəstəsi"ni ifa etmək də qismətimdə var imiş. Zamanında "Zaqafqaziyanın konservatoriyası" adlandırılan, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan, zəngin inkişaf yolu keçmiş Şuşa şəhərinin bu il 270 illiyidir. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2022-ci ilin "Şuşa ili" elan olunması gənclərin də üzərinə böyük məsuliyyət qoyur.

Şuşa ilə yanaşı, işğaldan azad olunmuş Füzuli, Xocavənd, Cəbrayıl və Ağdam rayonlarını ziyarət etmişəm. "Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyinin və "Böyük Qayıdış" Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə işğaldan azad edilmiş Ağdam şəhərində "Qarabağ Zəfərinin Ağdam müjdəsi" adlı tədbirin iştirakçısı olmuşam. Azad olunmuş torpaqlarımızın hər bir qarışını görmək, ziyarət etmək insanı qürurlandırır.

Azərbaycan Respublikasında gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq məqsədilə bir çox layihələr reallaşdırılır. Bu xüsusda qeyd etmək olar ki, Azərbaycan Respublikasının Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun və Türkiyə Gənclik Vəqfinin (TÜGVA) birgə təşkilatçılığı ilə Azərbaycan və



Türkiyə gənclərinin iştirakı ilə 19-24 oktyabr 2021-ci ildə Türkiyənin Qaziantep şəhərində keçirilən "Beynəlxalq zəfər düşərgəsi"nin iştirakçısı olmaq şansını qazandım. Düşərgədə olduğumuz müddət ərzində iki qardaş ölkənin gənclərinin əməkdaşlığının daha da inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlərdə, görüşlərdə iştirak etdik.

Bu gün ölkəmizdə gənclər siyasətinin inkişaf mərhələsi elə bir səviyyəyə çatıb ki, artıq öz təcrübəmizi ən qabaqcıl dövlətlərlə bölüşə bilirik. Azərbaycan gəncləri müxtəlif nüfuzlu beynəlxalq qurumların rəhbər vəzifələrinə seçilir, respublikamızı layiqincə təmsil edirlər. Dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi kimi, bölgələrdə yaşayan gənclərimiz də bu prosesdə fəal iştirak edirlər. İnanıram ki, dövlət başçısının rəhbərliyi altında biz gənclər siyasəti sahəsində daha böyük uğurlar qazanacağıq.

***Yusif CƏFƏRBƏYLİ,***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistri***

Deməsək olmur

# Müşavir

Səhər işə gələndə hamı kimi biz də ilk növbədə təzə xəbərlərlə tanış oluruq. Lap "yağımız daşsa da", üstəlik, çörəyimiz xəbərdən çıxdığı üçün ictimai əhəmiyyət daşıyan bir xəbəri belə gözdən qaçırmamağa çalışırıq. Və həmin xəbərlər sırasında ən çox diqqətimizi çəkənlərdən biri də, etiraf edirik, kimin hansı vəzifəyə təyin, yaxud hansı vəzifədən azad olunmasıdır.

Hətta bir dəfə marağa təyin edilən vəzifələrin statistikasını aparmışdıq. Siz bilən, bu hansı vəzifə olsa, yaxşıdır? Əlbəttə, müşavir.

Bunu biləndən sonra kiçik bir araşdırma etdik. Sən demə, bu gün Azərbaycanda o nazir, sədr, rəis, müdir və ümumiyyətlə, möhürlü, katibəli bir kimsə yoxdur ki, müşaviri olmasın. Özü də bir yox, iki yox, saysız-hesabsız. Əcəba, bu müşavir, necə deyərlər, nəmənədir ki, "yuxarıdakı"lar onlarsız işlərini yola verməyi bacarmırlar.

Biz bilən, bu müşavirlərin harada və kimə müşavirlik etmələrindən asılı olmayaraq, cavabdehlik etdikləri, məsuliyyət daşıdıqları elə bir konkret sahə yoxdur. Əgər kimsə desə ki, filan müşavirə filan sahə tapşırılıb, inanın ki, bu vəzifə bölgüsü formaldır. Çünki həmin nazirlikdə və ya komitədə, ASC yaxud QSC-də bu işə baxan müavindən tutmuş köməkçiyə, departament direktorundan başlamış şöbə rəisinəcən o qədər vəzifəli şəxslər var ki... Hələ həmin işi birbaşa icra edən sıravi əməkdaşları demirik.

Yaxşı, belədirsə, ilin-günün bu vaxtında - ermənilər tərəfindən yerləyeksan edilmiş Qarabağ və Şərqi Zəngəzur boyda ərazilərimizin dirçəldilməsi, yenidən insan yaşayışı halına salınması üçün hər qarışına ətək-ətək vəsait lazım olduğu zamanda mərkəzi icra orqanlarında bu nə bədxərclikdir ki, lazımsız və limitsiz müşavir ştatları saxlayırlar?! Müşavirlərin heç təxmini də olsa orta aylıq əməkhaqlarını bilmirik. Bildiyimiz yalnız odur ki, həmin məbləğ az deyil və onunla işğaldan azad olunmuş ərazilərdə ən azından daşı daş üstünə qoymaq mümkündür.

Bu gün ölkədə büdcə vəsaitlərinə ciddi nəzarət var. Maliyyə Nazirliyi və Hesablama Palatası büdcənin hər qəpiyinin hesabını aparır. Belə olmasaydı, məsələn, büdcə hesabına hətta rəsmi materiallar dərc edən qəzetlərə abunə yazılmaq qadağan edilməzdi, baxmayaraq ki, qanunları və onlara edilən dəyişiklikləri, Prezidentin fərman və sərəncamlarını, hökumətin qərar və qaydalarını dərc edən həmin nəşrlər dövlət qurumlarında çalışanlara hava-su kimi lazımdır. Yaxşı, həmin maliyyə-nəzarət orqanları görmürlər ki, bir nazirin sayını itirdiyi qədər müşaviri var və onlar nəinki heç bir işlə məşğul olmurlar, hətta bir çoxu günlərlə işə gəlmir, yəni "ölü can"lardır?! Hələ ola bilsin "çox hörmətli müşavir"in katibəsi, köməkçisi, xidməti avtomobili, sürücüsü var, özü də dövlət büdcəsi hesabına.

Yeri gəlmişkən, qeyd edək ki, belələri üçün müşavirlik tramplindir, hərçənd işdən çıxarılıb müşavirliyə endirilənlər də var. Onlar üçünsə bu bekar vəzifə rahat "cərimə meydançası"dır. Əlqərəz, hər nədirsə, büdcəyə lazımsız yükdür, özü də əməlli-başlı. Söz düşmüşkən, yaxın vaxtlarda bizdə nazir var idi ki, özünə nə az-nə çox, düz 10 müşavir təyin etmişdi, hamısı da dost-tanışı, qohum-əqrəbası.

Kimsə deyə bilər ki, balam, nə düşmüsünüz bu müşavirlərin üstünə, məgər başınıza gərəksiz vəzifələr, şişirdilmiş ştat vahidləri qəhətdir? Üstəlik də, əlavə edər ki, heç bilirsiniz müşavir nədir, yaxud kimdir və nə işlə məşğul olur?

Biz də sual altında qalmamaq üçün etməyib tənbəllik Azərbaycan dilinin izahlı lüğətini vərəqləyib "müşavir" sözünün mənası ilə maraqlandıq. Sən demə, müşavir "məsləhətçi" deməkmiş. Bilmirdik ki, nazirə, sədrə, rəisə bu sayda məsləhət verən lazımmış. Məsləhətlə bağlı isə bizdə çox atalar sözü və lətifələr var. Məsələn, "Məsləhətli don gen olar" kimi. Bu atalar sözünü mövzumuza uyğunlaşdırsaq, təxminən belə alınar: "Məsləhətçisi çox olan nazirliyin büdcəsi gen gərək".

Yaxşı, zarafat bir yana, məgər nazirin əlinin altında ona məsləhət verə bilən müavinləri, köməkçiləri, departament direktorları, şöbə müdirləri və saysız-hesabsız başqaları azlıq edir ki, əlavə məsləhətçilər (müşavirlər) də saxlayır?! Üstəlik, nazirə hətta məsləhəti də başqaları verirsə, onda özü nə ilə məşğul olur?! Belə çıxır ki, heç nə ilə?

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Novruz kulturoloji dəyərlər kompleksidir

*Novruz, Novruz, al Novruz!*
*Novruz, Novruz, qal Novruz!*
*Novruz, Novruz, xoş gəldin*
*Dolu gəldin, boş gəldin?*
*Quru gəldin, yaş gəldin?*
*Novruz, Novruz, xoş gəldin...*


Foto İ.BABAYEVİNDİR



Yunan filosofu Demokrit demişdir ki, bayramsız həyat karvansarasız uzun yola bənzəyər. Böyük Yaradanın xalqımıza nəsib etdiyi ən böyük bayram Novruzdur. Tədqiqatlar göstərir ki, bayram öz məzmunu və mahiyyəti etibarilə mühüm kulturoloji dəyərdir.

Novruz xalqımızın mifik düşüncə və təsəvvürlərini özündə yaşadan və bu günümüzə yetirən qədim xalq bayramıdır. Bu bayram çox əski çağlarda Şərq dünyasında həm yazın gəlişi, yeni mövsümün başlanması, əkinçilik və maldarlıq mədəniyyəti ilə bağlı, həm də xalqın mənəvi-əxlaqi dəyərlərini, humanizm və həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən ayin və etiqadlar sistemidir.

Bu gün Novruzun konkret bir dövrdə xalq arasında keçirilmə tarixini söyləmək qeyri-mümkündür. Lakin bu bayramın şərəfinə ulu babalarımıza Novruz adı verilmiş və bayram xalqın ən ülvi duyğularını, sülh, dostluq, birlik, səmimiyyət, mərhəmət hislərinin yüksək ifadəçisinə çevrilmişdir. Müəyyən məqamlarda Novruza yasaqlar qoyulsa da, xalq arasında bayram bütün özəllikləri ilə birgə təntənəli şəkildə qeyd olunmuşdur.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin tarixi sərəncamından sonra Novruz bayramı artıq dövlət səviyyəsində qeyd edilməyə başladı. Bu isə Novruzla bağlı həqiqətin bərpa olunmasına və bayramın dünya xalqları arasında tanınmasına zəmin yaratdı.

2009-cu ildə Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramı və aşıq sənəti UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilmişdir.

Novruz bayramı haqqında bəzi tarixi mənbələrdə, mif mətnlərində, orta əsrlərə aid risalə və səyahətnamələrdə müəyyən məlumatlar verilmişdir. Bu bayram hələ ibtidai dövrlərdə, insanların təbiət və cəmiyyət hadisələrini özünəməxsus şəkildə dərk edib qavradığı bütün dini və siyasi mövqelərdən uzaq olduğu zamanlarda xalqın həyatına, yaşayış tərzinə, məişətinə, bir sözlə, təfəkkürünə, qanına, canına daxil olmuşdu.

Təsadüfi deyildir ki, orta əsr mənbələrinə görə, Novruz hələ Əhəmənilər dövründə (miladdan öncə 558-330) xalq arasında geniş yayılmış əkinçilik və maldarlıq görüşlərinin, yeni əmək mövsümünün başlanmasını özündə əks etdirən bayram kimi qeyd edilmişdir.

Novruz xalq təfəkküründə milli-mədəni dəyərləri möhkəmlətdiyindən onu müxtəlif dinlər, o cümlədən zərdüştilik və islamla bağlamağa çalışıb, bu bayramı ayrı-ayrı dini təriqətlərin bayramı kimi təqdim ediblər. Lakin Novruz bütün din və təriqətlərdən tamamilə uzaq, yazın gəlişini gözləyən xalqın müxtəlif ayin, etiqad və mərasimlərlə zəngin olan möhtəşəm, ürəklərə sevinc və mərhəmət gətirən bayramıdır. Novruz bayramı martın 20, 21-22-də xalq tərəfindən sevilə-sevilə qeyd edilir.

Yuxarıda qeyd etdiyimiz kimi, Novruz bayramı haqqında müxtəlif mənbələrdə maraqlı məlumatlar verilmişdir. Biz bu gün onlarla tanış olarkən bayramın Şərq xalqlarının tarixində, məişətində, dünyagörüşündə kök salan mahiyyətini bir daha açıqlamaq imkanını əldə edirik. Bu mənbələr arasında XI əsr ərəb tarixçisi Əbu Reyhan Əl-Biruninin (973-1048) "Qədim xalqlardan qalmış yadigarlar", "Qanuni-məsudi", "Ət-təhfim" əsərlərində, Ömər Xəyyamın (1045-1131) "Novruznamə" risaləsində, XI əsrin böyük siyasətçisi Nizamül-Mülkün "Siyasətnamə"sində və digər əsərlərdə Novruz haqqında məlumatlar verilir. "Novruznamə" əsərində göstərilir ki, "Cəmşid bu günü Novruz adlandırmaq barədə fərman verdi: Hər il fərvərdin (mart) ayının başlanğıcını bayram eləməyi, yeni ili həmin gündən hesablamağı əmr etdi".

N.Gəncəvinin "İskəndərnamə", Ə.Nəvainin "Səddi-İskəndər" əsərlərində Novruzun hələ bizim eradan 350 il əvvəl keçirilməsi göstərilib.

Novruz mövsüm mərasimi olduğuna görə, həm də təqvim bayramıdır. Dünyanın Şimal yarımkürəsində yaşayan əksər xalqlar bu bayramı yazın gəlişi ilə əlaqədar keçirirlər. Uzun müddət qışın soyuğundan, çətinliyindən əziyyət çəkən xalqlar yazın gəlişini gözləyirlər və bu bayramı təntənə ilə, ruh yüksəkliyi ilə qarşılayırlar. Azərbaycanda Novruz bayramı xüsusi təmtəraqla, silsilə oyun, tamaşa və nəğmələrin müşayiəti ilə keçirilir.

Novruz mənşəyinə görə "Yeni gün" anlamını ifadə edir. Ona görə də Novruz bayramı, xoş gün, xoş gələcək, gözəl və xoşbəxt həyatın müjdəçisidir. Arzu edirik ki, bu Novruz xalqımıza yeni sevinc dolu günlər gətirsin!

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru***

# "Omikron"un simptomları artır




## *Mütəxəssislər bu səbəbdən xəstəliyin diaqnozunu qoymağın çətinləşdiyini bildirirlər*

*Yüksək yoluxuculuğa malik olan "Omikron" variantı hazırda dünyada digər COVID-19 variantlarını üstələmiş vəziyyətdədir. Ən çox yayılan isə "Omikron"un altvariantı BA.1-dir. Əksər ölkələr, xüsusilə də Asiya və Avropa ölkələri BA.2-nin səbəb olduğu yoluxma hallarının artdığını bildiriblər. Mütəxəssislər məlumat verirlər ki, viruslar mutasiyaya uğradıqda və yeni variantlar ortaya çıxdıqda onlar bəzən altnövlərə bölünə bilirlər.*

"Delta" variantının 200 müxtəlif altvariantı var. Eyni proses "Omikron"da da müşahidə edilir, belə ki, onun BA.1, BA.2, BA.3 və sair altnövləri var. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ötən ayın sonuna olan məlumatına görə, qlobal GISAID məlumat bazasına təqdim edilən nümunələrin təxminən 99 faizi bu subvariant olub. Lakin BA.2 digər subvariantlara nisbətən daha yoluxucu olsa da, onun ağır xəstəliyə səbəb olduğuna dair hələlik heç bir elmi sübut yoxdur.

Ümumilikdə isə "Omikron" yoluxduğu şəxslərdə fərqli simptomlarla özünü büruzə verir. Bir çox xəstə yüngül soyuqdəymə kimi simptomlardan şikayət etsə də, bəziləri şiddətli simptomlarla üz-zə qalır. ÜST-ün yoluxucu xəstəliklər üzrə mütəxəssisi doktor Maria Van Kerkhove "Omikron" virusuna yoluxmuş insanların onlarca əlamət göstərə biləcəyini söyləyib. O, əlavə edib ki, biz bilirik ki, "Delta" ilə müqayisədə "Omikron" ilə yoluxsanız, xəstəxanaya yerləşdirmə riski orta hesabla daha azdır, lakin bu onun yüngül xəstəlik olduğu demək deyil.

### "Omikron" xəstələrində mədə-bağırsaq simptomları müşahidə olunur

İngiltərədəki London Kral Kolleci tərəfindən idarə olunan ZOE COVID araşdırma tətbiqi yeni növ koronavirusun simptomları haqqında istifadəçi bildirişlərini toplayır. Bu bildirişlərə əsasən müəyyən olunub ki, əksər "Omikron" xəstəsində boğaz ağrısı, şiddətli bədən ağrısı, yorğunluq, şiddətli baş ağrısı kimi soyuqdəyməyə bənzər simptomlar müşahidə olunur.

ZOE-nin nəticələrinə görə, son zamanlarda "Omikron" xəstələrində ishal, iştahasızlıq və qarın ağrısı kimi mədə-bağırsaq simptomu artıb. Digər tərəfdən, yoluxmuş insanlar klassik COVID-19 simptomu, öskürək, qızdırma və qoxu itkisi ilə bağlı daha az məlumat veriblər. Mütəxəssislər bildiriblər ki, simptomların bu qədər geniş olması səbəbindən xəstəliyin diaqnozunu qoymaq çətinləşib.

Eyni zamanda tibb elminin gəldiyi qənaət budur ki, "Omikron"a yoluxanlar xəstəliyi yüngül keçirsə də, vaksinasiya olunmayanlarda bu ştam ciddi fəsadlar törədə bilir.

### Azərbaycanda COVID sertifikatlarının etibarlılıq müddətinə dair tələblər dəyişib

Son dövrlər "Omikron" səbəbindən Azərbaycanda da COVID-ə yoluxma sayı artıb. Amma epidemioloji vəziyyət nəzarət altındadır. Bu həm də Azərbaycan əhalisinin 47 faizinin hər iki doza üzrə peyvəndlənməsi ilə əlaqədardır ki, müvafiq göstərici ÜST-ün 40 faiz hədəfini aşıb.

Fevralın 15-dən etibarən ölkəmizdə COVID sertifikatlarının etibarlılıq müddəti COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı (2 doza) təsdiqləyən sertifikat üzrə 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını ("buster" doza) aldıqda müddətsiz olacaq.

Bu, Nazirlər Kabinetinin 30 dekabr 2021-ci il tarixli qərarı ilə "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks-göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nda edilən dəyişiklikdə əksini tapıb.

Eyni zamanda Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərarında dəyişiklik edib. Beləliklə, 2022-ci il fevralın 15-dən etibarən bu qərarda nəzərdə tutulan iş və xidmət sahələri işçilərindən etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının və ya sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədin, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olması tələb ediləcək.

Fevralın 15-dən bütün elm və təhsil müəssisələri işçiləri və tələbələr üçün də peyvənd sertifikatına dair yeni tələb qüvvəyə minib. Qərara əsasən, fevralın 15-dən etibarən mülkiyyət formasından asılı olmayaraq, bütün elm və təhsil müəssisələri işçilərindən (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədin, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olması tələb ediləcək. O cümlədən fevralın 15-dən ali və orta-ixtisas təhsili müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı olan bütün şəxslərin etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olması tələb ediləcək. Bu halda yenə də təhsil alanların sayı 200 nəfərdən az olan təhsil müəssisələri istisna təşkil edəcək.

### Toy mərasimlərində peyvənd sertifikatına dair yeni tələb

Fevralın 15-dən toy mərasimlərində peyvənd sertifikatına dair tələb də dəyişib. Belə ki, Nazirlər Kabinetinin yuxarıda adıçəkilən qərarda etdiyi dəyişikliyə əsasən, göstərilən tarixdən COVID sertifikatlarının etibarlılıq müddəti COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı təsdiqləyən sertifikat üzrə 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda daimidir. Etibarlılıq müddəti COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikat üzrə 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda müddətsizdir. Beləliklə, bununla əlaqədar 150 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində iştirak edən yaşı 18-dən yuxarı bütün qonaqlara münasibətdə də yeni tələb qüvvədədir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***







# Səhiyyə qurumları "buster" doza ilə bağlı birgə məlumat yayıblar

Fevralın 15-dən etibarən Nazirlər Kabinetinin Qərarına əsasən, COVID-19-a qarşı peyvəndin 2-ci dozasının üzərindən 6 ay keçmiş şəxslərin "Peyvənd sertifikatı" etibarlı hesab edilməyəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB birgə məlumat yayıblar.

Məlumatda qeyd olunub ki, "Peyvənd sertifikatı" tələb olunan sahələrdə çalışan və bir sıra iş və xidmət sahələrinin fəaliyyətindən istifadə edən yaşı 18-dən yuxarı şəxslərin 2-ci dozalarının üzərindən 6 ay keçdikdən sonra "buster" doza ilə peyvəndlənməsi tövsiyə olunur. Bunun üçün https://randevu.its.gov.az saytına daxil olaraq koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürülməlidir.

Qeyd edək ki, sabahdan etibarən aşağıdakı məkanlara yaşı 18-dən yuxarı olan şəxslərdən yalnız etibarlı olan "Peyvənd sertifikatı", "İmmunitet sertifikatı", yaxud "Əks-göstəriş sertifikatı" olanların girişinə icazə veriləcək.

1. İctimai iaşə müəssisələrinə (kafe, restoran və s.);
2. Mehmanxanalara;
3. İri ticarət mərkəzlərinə;
4. İdman və sağlamlıq-bərpa obyektlərinə;
5. Toy və ya digər şənliklərə;
6. Ali təhsil müəssisələri və kolleclərə.

Dövlət qurumlarında, eləcə də bu qərarın əlavəsində sadalanan (tibb və əczaçılıq müəssisələri, elm və təhsil müəssisələri və digər sahələrdə) iş və xidmət sahələrində çalışan işçilərdən etibarlı olan "Peyvənd sertifikatı", "İmmunitet sertifikatı", yaxud "Əks-göstəriş sertifikatı"nın olması tələb ediləcək.

Məlumat üçün bildirək ki, koronavirusa qarşı Azərbaycanda tətbiq olunan vaksinlərdən hər hansı birinin hər iki dozasını vurduran şəxslərə "Peyvənd sertifikatı" verilir. "Peyvənd sertifikatı"nın etibarlılıq müddəti altı aydır. Həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında iki doza vurulması nəzərdə tutulan peyvəndin bir dozasını aldıqda "Peyvənd sertifikatı"nın qüvvədə olması müddətsiz olaraq uzadılır.

# Milli Aviasiya Akademiyası: Azərbaycanda

**"Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyası (MAA) səciyyəvi xüsusiyyətlərinə, maddi-texniki, tədris-metodiki, elmi-tədqiqat və laborator-təcrübə bazasına görə Azərbaycan Respublikasının təhsil sistemində xüsusi yer tutur. Aviasiya mütəxəssislərinin hazırlanması mülki aviasiyanın inkişafının ayrılmaz hissəsinə çevrilmişdir. Hava gəmiləri parkının yenilənməsi, hava daşımalarının coğrafiyasının genişləndirilməsi, beynəlxalq aeroportların inşası, ən son naviqasiya sistemlərinin quraşdırılması, müasir uçuş-texniki istismar sisteminə keçid, habelə Milli Aviasiya Akademiyası kimi hazırlıq mərkəzinin yaradılması bu inkişafın əsasını təşkil edir.**

25 ildən artıqdır ki, akademiya bu yüksək texnoloji və elmi tutumlu sahəni dünya standartları səviyyəsində tam olaraq ali, əlavə və xüsusi peşə təhsili proqramları üzrə kadrlarla təmin edir. Məhz mülki aviasiyada uçuşların təhlükəsizliyinə qoyulan yüksək tələblər Azərbaycanda aviasiya elminin və təhsilinin əsas istiqamətlərini özündə ehtiva etmişdir. Azərbaycanda mülki aviasiyanın strateji inkişaf istiqamətləri Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmişdir.

Bu strategiyanı həyata keçirmək, genişləndirmək və inkişaf etdirmək, Azərbaycan mülki aviasiyasını dünya səviyyəsinə çıxarmaq, "Azərbaycan Hava Yolları" aviaşirkətini dünyanın nüfuzlu, müasir, təhlükəsiz və etibarlı dövlət aviadaşıyıcılarından birinə çevirmək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasəti, diqqəti və dəstəyi sayəsində mümkün olmuşdur.

Bu gün, 25 ildən artıq vaxt keçdikdən sonra Azərbaycan mülki aviasiyasının bu illər ərzində ən sürətli inkişaf yolu keçdiyini aydın görmək mümkündür. Aviasiya Akademiyası 1992-ci ildə Milli Aviasiya Mərkəzi kimi yaradılmışdır. 1994-cü ildə Milli Aviasiya Mərkəzinin adı dəyişdirilərək "Azərbaycan Hava Yolları" Dövlət Konserninin - indiki "Azərbaycan Hava Yolları" QSC-nin nəzdində Milli Aviasiya Akademiyası adlandırılmışdır. Ali təhsil müəssisəsi fəaliyyətə başlayarkən burada bir fakültə, iki ixtisas mövcud idi və 80 tələbə təhsil alırdı.

1996-cı ildə Akademik Arif Mir Cəlal oğlu Paşayevin MAA-nın rektoru təyin edilməsi Milli Aviasiya Akademiyasının təşəkkülündə və inkişafında mühüm hadisə oldu. Akademik Arif Paşayev Azərbaycan xalqının parlaq nümayəndələrindən olmaqla, müdrik və mütərəqqi rəhbər, son dərəcə zəngin həyat və peşə təcrübəsinə malik alimdir. Akademiyanın rektoru müasir aviasiya ali təhsil müəssisəsinin inkişafı üçün zəruri olan bütün tədbirləri görür. Bu mühüm işdə Arif müəllimə "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov hərtərəfli dəstək və köməklik göstərir. Müdrik rəhbərlik və birgə səylər nəticəsində Milli Aviasiya Akademiyası bu illər ərzində öz layiqli təşəkkül və tərəqqi yolunu keçmişdir.

Akademik Arif Paşayevin çoxillik iş təcrübəsi aviasiya sahəsində yeni elmi tətbiqini tapmışdır. O, müasir dünya standartlarına cavab verən, özündə təhsilin, elmin və istehsalatın vəhdətini təşkil edən ali təhsil müəssisəsi yaratmışdır. Rektor gözəl bilirdi ki, professor-müəllim heyətinin və tələbələrin birgə elmi-tədqiqat və praktiki fəaliyyəti olmadan tamhəcmli ali təhsil qeyri-mümkündür. Akademik Arif Paşayev vahid kollektiv yaratmağa, onun pedaqoji, elmi və praktiki fəaliyyətini təşkil etməyə və əlaqələndirməyə müvəffəq olmuşdur.

Azərbaycan Mühəndislik Akademiyasının prezidenti və Kosmik Məsələlər üzrə Şuranın sədri olmaqla, Arif Mir Cəlal oğlu Paşayev Azərbaycan Respublikasında aerokosmik sahənin strateji əhəmiyyətli elmi layihələrinin təməlində dayanır. Onun rəhbərliyi altında bu gün Milli Aviasiya Akademiyası Heydər Əliyev Beynəlxalq Aeroportunun bilavasitə yaxınlığında yerləşən kampus üslublu müasir elmi-tədris-təcrübi kompleksdir.

Akademiyada 20 bakalavriat, 17 magistratura və 10 doktorantura ixtisasları üzrə iki minə yaxın tələbə təhsil alır. Fəaliyyət göstərdiyi illər ərzində akademiya 9000-dən çox mütəxəssis hazırlamışdır. Müasir təyyarə və helikopter pilotlarının, havada hərəkətin təşkili üzrə dispetçerlərin, aerokosmik texnikanın layihələndirilməsi və istismarı üzrə mühəndislərin, aeronaviqasiya, hava nəqliyyatında təhlükəsizlik, aviasiya meteorologiyası, aerokosmik monitorinq, sərnişin və yük daşımaları, terminalların və logistik mərkəzlərin idarə edilməsi, hava limanlarının istismarı üzrə mütəxəssislərin hazırlığı akademiyanın fəaliyyətinin əsasını təşkil edir. Akademiya bunlarla yanaşı, energetika, radioelektronika, telekommunikasiya, informasiya texnologiyaları, ekologiya üzrə mühəndisləri, hüquqşünaslıq, iqtisadiyyat və menecment üzrə mütəxəssisləri də hazırlayır.







Milli Aviasiya Akademiyasında ixtisasların seçilməsi və əsaslandırılması respublikanın aerokosmik, nəqliyyat, energetika və bir sıra digər sahələrinin inkişafına istiqamətlənmiş dövlət siyasətinin ayrılmaz hissəsidir. Ali təhsil müəssisəsinin ixtisaslarının hər biri özündə müəyyən missiyanı daşıyır. Bununla yanaşı, akademiyanın bütün ixtisasları bu və ya digər şəkildə aerokosmik sahə ilə bağlıdır.

Fəaliyyətinin ilk illərində akademiya aviasiya texnikasının uçuş və texniki istismarı üçün kadrlar hazırlayırdı, lakin ölkə iqtisadiyyatının intensiv inkişafı sayəsində müasir tələblərə cavab verən yüksəkkateqoriyalı mütəxəssislərə zərurət yaranırdı. Bu baxımdan təhsilin bütün səviyyələri üzrə hazırlıq istiqamətlərinin və proqramlarının müəyyən olunması əsas vəzifələrdən idi. Həmin vəzifənin həyata keçirilməsi istiqamətində rektor Arif Paşayev uzun illər ərzində təhsil məsələlərində müdrik və qətiyyətli siyasət yürüdür. Bu siyasətin əsasını gələcəyə perspektiv baxış və səmərəli yanaşma təşkil edir. Rektor dinamik inkişaf edən iqtisadiyyat sahələrində peşəkar kadrlara və hazırlıq növlərinə olan tələblərin daim dəyişdiyini, yeni ixtisaslara, təhsil proqramlarının və hazırlıq üsullarının təkmilləşdirilməsinə ehtiyac yarandığını hər zaman nəzərə alır. Eyni zamanda Təhsil Nazirliyinin, respublika və beynəlxalq aviasiya hakimiyyətləri orqanlarının, aerokosmik sahə üçün mütəxəssis hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin fəaliyyətini əlaqələndirən təşkilatların tələblərinə dəqiq riayət etmək lazım idi. Bu baxımdan akademiyanın "AZAL" QSC-nin struktur bölməsi olması, mülki və dövlət aviasiyası subyektləri, aerokosmik və digər sahələr, energetika və nəqliyyat sektoru ilə qarşılıqlı sıx əlaqədə fəaliyyət göstərməsi olduqca mühüm rol oynayırdı.

Kosmik Məsələlər üzrə Şuranın sədri, akademiyanın rektoru Akademik Arif Paşayevin rəhbərliyi ilə 2012-ci ildə kosmik sahə üçün mütəxəssis hazırlığına başlanıldı. Bu addım Azərbaycanda kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının müvafiq müddəalarının həyata keçirilməsi ilə, eləcə də aerokosmik sahənin inkişafına və bu sahə üçün mütəxəssis hazırlığına təkan verən süni peyklərin orbitə buraxılmasına hazırlıqla əlaqədar atılmışdı. Həmin illərdə Nəqliyyat Nazirliyi ilə razılaşmaya əsasən, akademiyada digər nəqliyyat növləri üçün mütəxəssislərin - elektroenergetika, proseslərin avtomatlaşdırılması, logistika üzrə mühəndislərin, nəqliyyat sistemi üçün menecerlərin hazırlığına başlanıldı.

Ali təhsillə yanaşı, akademiyada orta və kiçik kateqoriyalı aviasiya mütəxəssislərinin də hazırlığı həyata keçirilir. Bunlara kommersiya və hava xətləri pilotları, havada hərəkətin idarə edilməsi və uçuşların təmini üzrə işçi heyət, beynəlxalq hava xətləri üçün təyyarə bələdçiləri, bort texnikləri, operatorlar və mexaniklər, naviqatorlar və radistlər, hava gəmilərinə və yerüstü avadanlığa xidmət göstərən texniklər, meteoroloqlar, aerodrom xidməti, aviasiya təhlükəsizliyi, qəza-xilasetmə və axtarış xidməti, aviadaşımaların təşkili xidmətinin işçi heyəti və s. daxildir.

Bu məqsədlə 2005-ci ildə akademiyada Aviasiya Personalının Hazırlığı Mərkəzi yaradılmış, 2010-cu ildə trenajor kompleksini, təcrübi və nəzəri hazırlıq bölmələrini özündə birləşdirən Pilotların Hazırlığı Mərkəzi, 2013-cü ildə səlahiyyətli IATA institutu, 2019-cu ildə isə Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən sertifikatlaşdırılmış Texniki Xidmət Məktəbi təsis olunmuşdur. Beləliklə, akademiyanın timsalında respublikanın mülki aviasiya sahəsi üçün peşəkar kadrlar hazırlayan milli sistem fəaliyyət göstərir. Təhsilin bu istiqamətinin yaranması və təşəkkülü Azərbaycanın aviasiya və kosmik sahələrinin tarixi, ənənələri və strategiyası ilə ayrılmaz şəkildə bağlıdır.

Bu gün akademiyanın təhsil strukturuna 6 fakültə, 23 kafedra, Pilotların Hazırlığı Mərkəzi, IATA İnstitutu, Texniki Xidmət Məktəbi, İnformasiya Texnologiyaları Mərkəzi daxildir. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos" ilə birlikdə Akademiyada Aerokosmik monitorinq mərkəzi yaradılır, kiçik peyklərin işlənib hazırlanması mərkəzinin təsis olunması nəzərdə tutulmuşdur.

1999-cu ildən akademiya Dövlətlərarası Aviasiya Komitəsi (DAK) tərəfindən sertifikatlaşdırılaraq, təşkilata üzv olan ölkələrdə tanınır. 2002-ci ildə akademiya Beynəlxalq Mülki Aviasiya Təşkilatının - ICAO-nun reyestrinə daxil edilir.

2003-cü ildə akademiya "Aviasiya və raket-kosmik texnikasının sınaqları və istismarı" və "Aeronaviqasiya" sahələrində ali təhsil müəssisələrinin Tədris-metodiki birliyinin assosiativ üzvlüyünə qəbul olunmuş, 2004-cü ildə Aviasiya Təlim Mərkəzləri Assosiasiyasına, 2016-cı ildə "Aeronaviqasiya və aviasiya və raket-kosmik texnikasının istismarı" istiqaməti üzrə Federal tədris-metodiki birliyin tərkibinə daxil edilmişdir. 2012-ci ildə MAA Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) səlahiyyətli tədris mərkəzi statusunu almışdır.

Tədris prosesi akademiyanın kafedra və mərkəzlərinin laboratoriya-təcrübə və elmi-tədqiqat bazasında, aviaşirkətlərin və aviasiya müəssisələrinin struktur bölmələrində, eləcə də müxtəlif nazirlik, idarə, agentlik və müəssisələrdə keçirilir.

Kadrların hazırlanmasında "Azərbaycan Hava Yolları" QSC-nin, "Silk Way" Şirkətlər Qrupunun (SW Group), "ASG Helicopter Services" şirkətləri, "Azərkosmos" Kosmik Agentliyinin rəhbərləri və aparıcı mütəxəssisləri, Azərbaycan Milli Elmlər Akademiyasının, Milli Aerokosmik Agentliyinin və aparıcı ali təhsil müəssisələrinin alimləri iştirak edirlər.

Akademiyanın uğurları onun infrastrukturunun və maddi-texniki bazasının inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır. MAA-nın infrastrukturuna 5 tədris-laboratoriya korpusu, Pilotların Hazırlığı Mərkəzinin trenajor kompleksi, Elm-istehsalat Birliyi, Tələbə şəhərciyi, Tələbə Tədris Mərkəzi, Uçuş aparatlarının hazırlanması laboratoriyası, Tələbə Yaradıcılıq Evi, Heydər Əliyev Muzeyi, Aviasiya tarixi muzeyi, İdman kompleksi, "Fitnes" mərkəzi, hotel "Akademiya", parklar, kitabxanalar, iaşə və istirahət obyektləri, mağazalar və s. daxildir. Tələbə şəhərciyində hotel tipli dörd yataqxana, qaçış zolaqları ilə təmin edilmiş və 1600 tamaşaçı yerinə malik stadion, tennis kortları, mini-futbol, voleybol, basketbol idman meydançaları, həmçinin tələbələrin rahatlığı üçün zəruri köməkçi strukturlar daxildir.

Akademik idman kompleksində müxtəlif idman bölmələri fəaliyyət göstərir, respublika və beynəlxalq səviyyədə yarışlar keçirilir. Burada beynəlxalq standartlara cavab verən açıq meydançalar, oyun növləri üçün universal zal, idman trenajorları, qapalı üzgüçülük hovuzu fəaliyyət göstərir.

Tələbə yaradıcılıq evi hava gəmilərinin texniki istismarı, CAD/CAE/CAM texnologiyalarından istifadə etməklə pilotsuz uçuş aparatlarının və kiçik mühərriklərin işlənib-hazırlanması, həmçinin elektroenergetika, elektronika, radiotexnika, cihazqayırma üzrə aviasiya mütəxəssislərinin yetişdirilməsi üçün mühüm rol oynayan müasir avadanlıqla təchiz edilmişdir. Uçuş aparatlarının hazırlanması laboratoriyasında 2011-ci ildən etibarən tələbələr tərəfindən üç yüzə yaxın müxtəlif pilotaj modelləri yaradılmışdır.

Tədris prosesi təyyarə və helikopterlərin konstruksiyası və sistemləri, aviasiya mühərrikləri, güc qurğuları, havada hərəkətin idarə olunması, avionika, radiotexnika, avtomatika, meteorologiya, aviasiya təhlükəsizliyi, ekologiya, habelə fizika, kimya, mexanika, elektrotexnika və elektronika, materialşünaslıq, informasiya texnologiyaları üzrə müasir xüsusi auditoriyalarda və laboratoriyalarda keçirilir. Burada dispetçer trenajorları, avtomatlaşdırılmış HHİ sisteminin laboratoriyası, meteoroloji stansiya, "DFS-e-learning" distant təhsil auditoriyası qurulmuş, aviasiya texnikasının diaqnostikası, aviasiyada insan amili, aerokosmik monitorinq, radioelektronika, nanotexnologiyalar və nanokompozitlər üzrə problem laboratoriyalar fəaliyyət göstərir. Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində zəruri avadanlıq və təlim vasitələri ilə təchiz edilmiş aviasiya təhlükəsizliyi üzrə praktiki məşğələlərin keçirilməsi üçün xüsusi auditoriyalar yaradılmışdır.

# aviasiya elminin və təhsilinin inkişafı




Hazırlıq proqramlarına uyğun olaraq əyani vəsaitlər, elektrikləşdirilmiş stendlər, müasir təlim texnikası, audio/video materiallar və tədrisedici proqramlarla təchiz olunmuş Boeing B757, Airbus A320, ATR 72, İL-76, Cessna 172S təyyarələri və onların mühərrikləri üzrə xüsusi siniflər, Mi-171 (Mi-8MTV) helikopterinin tədris kompleksi fəaliyyət göstərir.

2010-cu ildə akademiyanın bazasında yaradılan Pilotların Hazırlığı Mərkəzi Airbus A319/320, Boeing B757/767, Embraer E190, ATR42/72, İL-76TD təyyarələrinin, həmçinin Mi-171 (Mi-8 MTV) helikopterinin müasir trenajorları ilə təchiz edilmişdir. Pilotların Hazırlığı Mərkəzi Şərqi Avropada və MDB məkanında ən böyük mərkəzlərdən biri olaraq, pilot-müdavimlərin məqsədyönlü, fasiləsiz hazırlığına və uçuş heyəti üzvlərinin istehsalatdan ayrılmadan ixtisaslarının artırılmasına xidmət edir. Bu illər ərzində 35 respublika və xarici aviaşirkətin 7000-ə yaxın pilotu akademiyanın Pilotların Hazırlığı Mərkəzinin trenajor qurğularında təlim keçərək, ümumilikdə 90000 saata yaxın uçuş yerinə yetiriblər. Onlardan 2000 pilot "AZAL" QSC, "SW Group", "ASG Helicopter Services" şirkətləri, dövlət aviadaşıyıcıları, nazirlik və qurumların nümayəndələridir.

Hər il Pilotların Hazırlığı Mərkəzində orta hesabla 4000-dən 6500-dək dinləyicinin iştirakı ilə 120-130 istiqamət üzrə 300-dən 750-dək nəzəri və praktik peşəkar hazırlıq kursları keçirilir. 2005-2021-ci illər ərzində akademiyada təşkil edilmiş 7000-ə yaxın müxtəlif təyinatlı hazırlıq kurslarında 62000 nəfərdən çox dinləyici təlim keçmişdir. Avtorizə olunmuş IATA İnstitutunda 310 kursda bir sıra təşkilatların təqribən 2400 nümayəndəsi beynəlxalq sertifikatlar almışdır.

Tədris prosesi 430 nəfərdən artıq professor-müəllim heyəti tərəfindən həyata keçirilir. Elmi-pedaqoji fəaliyyətdə Azərbaycan Milli Elmlər Akademiyasının 5 akademiki və müxbir üzvü, 40-dan çox elmlər doktoru və 110 fəlsəfə doktoru iştirak edir. Onların sırasında ölkənin dörd əməkdar elm xadimi, dörd əməkdar pilot, altı əməkdar müəllim, həmçinin əməkdar mühəndislər, ali məktəb və mədəniyyət işçiləri vardır. MAA-nın altı əməkdaşı "Şərəf", "Şöhrət" və "Xalqlar dostluğu" ordenləri, səkkiz əməkdaşı "Tərəqqi" və "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif edilmiş, bir əməkdaş Heydər Əliyev mükafatına layiq görülmüşdür.

Akademiyada 150-dən artıq məzun çalışır ki, onlardan da 60 nəfəri pedaqoji və təlimatçı fəaliyyətinə cəlb olunaraq MAA-nın kafedra və struktur bölmələrinə rəhbərlik edirlər. Pilotların Hazırlığı Mərkəzinin mühəndis heyəti akademiyanın məzunlarından təşkil olunub.

Aviasiya, energetika və nəqliyyat sahələrində bir sıra elmi-texniki problemlərin həlli, müxtəlif müəssisə, nazirlik, idarə və təşkilatların sifarişlərinin yerinə yetirilməsi məqsədilə akademiyada Elm-İstehsalat Birliyi (EİB) yaradılmışdır. Birliyə Elmi-Tədqiqat Nəqliyyat və Aviakosmik Problemləri İnstitutu (ETNAPİ), Xüsusi Konstruktor Bürosu və Təcrübə-sınaq istehsalatı daxildir. Birlik fakültə və kafedralarla sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir, fundamental və tətbiqi tədqiqatlarla məşğul olur və konstruktor-texnoloji həlləri istehsalatda tətbiq edir. EİB-in akademiyanın təhsil strukturu ilə birgə fəaliyyəti müəyyən mövzular ətrafında həyata keçirilir. Əsas sifarişçilər "Azərbaycan Hava Yolları" QSC, "SW Group", "Azərbaycan Dəmir Yolları" QSC, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, aparıcı şirkətlər və müəssisələrdir.

Akademik Arif Mir Cəlal oğlu Paşayevin rəhbərliyi altında bu illər ərzində MAA-da zədəsiz nəzarət metodları, radiotexnika, bərk cisim elektronikası, hava nəqliyyatının, yerüstü komplekslərin, uçuş aparatlarının və onların sistemlərinin istismarı, aerokosmik monitorinq və Yerin məsafədən zondlanması, uçuşların təhlükəsizliyi, aviasiyada insan amili, aviasiya texnikasının modelləşdirilməsi və diaqnostikası, aviasiya meteorologiyası, həmçinin lazer texnikası, enerjiyə qənaət texnologiyaları, ozonlaşdırma texnologiyası, lüminessent materiallar üzrə elmi istiqamətlərin əsası qoyulmuşdur. Aerokosmik sahədə müasir informasiya texnologiyalarının, süni intellektin tətbiqi, aviasiya texnikasının, pilotsuz uçuş aparatlarının, reaktiv mühərriklərin, kiçik peyklərin, radioelektron mübarizə vasitələrinin, habelə idarəetmə sistemlərinin, enerji mənbələrinin, robot-texniki sistemlərin işlənib hazırlanması üzrə elmi istiqamətlər yaradılır və inkişaf etdirilir.

Rektor Arif Paşayevin dəvəti ilə Milli Aviasiya Akademiyasında elmi istiqamətlərin təşəkkülü və inkişafında akademiklər Roald Saqdeyev (ABŞ), Arif Mehdiyev, Akif Hacıyev, Çingiz Qacar, Emin Şahtaxtinski, Bahadur Tağıyev, Elmlər Akademiyasının müxbir üzvləri Afiq Həsənov, Ağası Məlikov, Arif Məmmədov, İsmayıl İsmayılov, professorlar Namiq Hacıyev, Fuad Qasımov, Valeri Sultanov, Telman Nizamov, Kərim Allahverdiyev, Ramiz Sadıqov, Faiq Ələsgərov, Əhəd Canəhmədov, Milli Aviasiya Akademiyasının çoxsaylı alim və mühəndisləri iştirak etmişlər. Elmi istiqamətlərin inkişafında və müzakirəsində xarici ölkələrin alimləri Daniel Usikov və Qalina Dudnikova (ABŞ), Məsud Əfəndiyev və Anar Rüstəmov (Almaniya), Alik İsmayılzadə (Fransa), Anatoli Potapov, Nikolay Plotnikov və Yelena Nikolayeva (Rusiya), Pavel Amnuel (İsrail) və bir çoxları fəal rol oynayırlar.









Akademiyanın elmi və pedaqoji potensialı ali təhsil müəssisəsini müasir və səmərəli metodların tətbiq edildiyi elmi və texniki fikir mərkəzinə çevirmişdir. Təlimlər real vəziyyətə maksimal yaxın şəraitdə keçirilir. Elmin, təcrübənin və təhsilin vəhdəti MAA-da kadr hazırlığının fəlsəfəsini təşkil edir. Gənclərin elmi potensialının yüksəldilməsinə xüsusi diqqət yetirilir. Elmi-pedaqoji kadrların hazırlığı üçün Magistratura və doktorantura şöbəsi fəaliyyət göstərir. Dörd texniki və üç hüquq elmi ixtisasları üzrə doktorluq dissertasiyalarının müdafiəsi üçün şuralar fəaliyyət göstərir. Bu şuralarda 1996-cı ildən etibarən 150-yə yaxın elmi iş müdafiə edilmişdir. MAA-nın əməkdaşları tərəfindən 24-dən artıq doktorluq və 70 namizədlik dissertasiyası müdafiə olunmuş, 2500-ü xaricdə olmaqla, 7000-ə yaxın elmi məqalə və tezis çap edilmiş, 130-dan artıq monoqrafiya, xüsusi fənlər üzrə 150 dərslik, 370 tədris və 400 metodiki vəsait hazırlanmış, 35-i xarici olmaqla, 200-ə yaxın ixtira patenti alınmışdır.

Hər il MAA-da aviakosmik sahənin aktual məsələləri üzrə elmi konfrans və seminarlar keçirilir, akademiyanın alim və mühəndisləri, müəllimləri, tələbə və doktorantları müxtəlif respublika və beynəlxalq qrantlarda, yarışma və layihələrdə iştirak edirlər. Məsələn, "Azərkosmos" Kosmik Agentliyinin mütəxəssisləri tərəfindən aerokosmik ixtisasların tələbələri üçün orbital mexanika, uçuş dinamikası, peyklər və onlar üzərində əməliyyatlar, yerüstü stansiyalar, məsafədən müşahidə sensorları, kosmik təsvirlərin emalı və s. üzrə 20-yə yaxın xüsusi seminar keçirilib. Aerokosmik monitorinq, ekoloji sistemlər, təhsil proqramlarının keyfiyyətinin yaxşılaşdırılması, onların Avropa standartlarına uyğunlaşdırılması üzrə bir sıra layihələr, o cümlədən Avropa İttifaqının TEMPUS SESREMO, ERASMUS+ layihələri uğurla həyata keçirilmişdir. Layihələr çərçivəsində tələbə və müəllimlər mütəmadi olaraq Avropa universitetlərində təşkil edilən yay məktəblərində iştirak etmişlər. 2016-cı və 2017-ci illərdə MAA-nın tələbələri Texas ştatında (ABŞ) keçirilən "CanSat" layihəsinin final mərhələsində iştirak edərək, mükafat yerləri tutmuşlar. 2018-ci ildən etibarən bu yarışma "Azərkosmos" Kosmik Agentliyinin təşkilatçılığı, Rusiya və Amerika mütəxəssislərinin dəstəyi ilə Azərbaycanda da keçirilir. MAA tələbələrinin bu il Bakıda keçiriləcək "Texnofest-2022" sərgisində iştirakı da nəzərdə tutulmuşdur.

1999-cu ildən etibarən MAA-nın "Elmi əsərlər" və "Elmi məcmuələr", "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" jurnalları çap olunur, 2012-ci ildən elmi-populyar "Sky" (Səma) jurnalı nəşr edilir.

1999-cu ildən etibarən hər il akademiyada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin doğum gününə həsr olunan "Azərbaycanda nəqliyyatın inkişafı problemləri" mövzusunda tələbələrin respublika elmi-texniki konfransı keçirilir. Burada ali təhsil müəssisələrindən, elmi mərkəzlərdən, nazirliklərdən, idarələrdən və aparıcı şirkətlərdən yüzlərlə gənc tədqiqatçı iştirak edir. 2016-cı ildən etibarən MAA-da Gənclər Gününə və Azərbaycanda ilk telekommunikasiya peykinin orbitə çıxarılmasına həsr olunan "Fevral məruzələri: Aviakosmik problemlərin həllində gənclərin yaradıcılıq potensialı" adlı illik beynəlxalq elmi-praktiki konfrans keçirilir. Konfransda, orta hesabla, 40-a yaxın aparıcı aerokosmik təhsil və elmi müəssisənin, habelə respublikanın və xarici dövlətlərin sahə nazirliklərinin, idarələrinin, aparıcı şirkətlərinin 150-dən çox nümayəndəsi iştirak edir. Konfrans çərçivəsində gənc tədqiqatçıların ən aktual elmi nəticələrinin müzakirə olunduğu plenar və bölmə iclasları, seminarlar və "dəyirmi masa"lar təşkil olunur.

MAA-nın beynəlxalq əlaqələri akademiyanın bütün fəaliyyət istiqamətləri üzrə inkişaf edir. Bu əlaqələrin əsasını xarici aerokosmik, mühəndis və humanitar ali təhsil müəssisələri, həmçinin elmi mərkəzlər və təlim təşkilatları ilə əməkdaşlıq təşkil edir. Akademiyanın Rusiya, Ukrayna, Türkiyə, Belarus, Gürcüstan, Qazaxıstan, Latviya, Litva, Almaniya və digər ölkələrin ali təhsil müəssisələri ilə ənənəvi elmi-praktiki əlaqələri mövcuddur. Bu müəssisələr M.V.Lomonosov adına MDU, Moskva Dövlət Mülki Aviasiya Texniki Universiteti, Sankt-Peterburq Mülki Aviasiya Akademiyası, N.E.Bauman adına MDTU, Rusiya Nəqliyyat Universiteti "MİİT", Milli Nüvə Tədqiqatları Universiteti "MİFİ", Akademik S.P.Korolyov adına Samara Milli Tədqiqat Universiteti, Cənub Federal Universitetinin Taqanroq Texnologiya İnstitutu, Ukrayna Milli Aviasiya Universiteti, N.Y.Jukovski adına Milli Aerokosmik Universitet - "XAİ", Olesya Qonçar adına Dnepropetrovsk Milli Universiteti, A.S.Popov adına Odessa Milli Rabitə Akademiyası, Belarus Dövlət Aviasiya Akademiyası, Gürcüstan Aviasiya Universiteti, Qazaxıstan Mülki Aviasiya Akademiyası, Əl-Fərabi adına Qazaxıstan Milli Universiteti, Latviyanın Nəqliyyat və Rabitə İnstitutu, BAA Training Litva, Almaniyanın DFS Akademiyası, Berlin Texniki Universiteti, İstanbul Texniki Universiteti, İzmir Yüksək Texnologiyalar İnstitutu, Anadolu Texniki Universiteti (Mülki aviasiya ali məktəbi) və digərləridir. Akademiyanın bir çox məzunları təhsillərini Rusiyanın, Türkiyənin, Ukraynanın, Baltikyanı ölkələrin, Avropa, ABŞ, Kanada, Çin, Koreya, Hindistan və digər dövlətlərin ali məktəblərində uğurla davam etdirirlər.

Akademiya Dövlətlərarası Aviasiya Komitəsi (DAK) ilə sıx əməkdaşlıq edir, akademiyanın əməkdaşları meteorologiya, aviasiya tibbi, aviasiya təhlükəsizliyi üzrə koordinasiya şuralarının işində fəal iştirak edirlər. Bununla yanaşı, akademiyanın struktur bölmələrinin, ayrı-ayrı ixtisasların və hazırlıq növlərinin sertifikatlaşdırılması üzrə beynəlxalq təşkilatlarla da fasiləsiz iş aparılır. Dövlət Mülki Aviasiya Agentliyi ilə yanaşı, akademiyanın bütün ixtisasları və hazırlıq proqramları, eləcə də bütün təhsil prosesi mütəmadi olaraq DAK tərəfindən sertifikatlaşdırılır. Pilotların Hazırlığı Mərkəzinin Airbus A319/320, Boeing 757/767, Embraer E190, ATR 42/72 təyyarələrinin trenajorları eyni zamanda hər il Avropanın Uçuşların Təhlükəsizliyi Agentliyi (EASA), səlahiyyətli IATA İnstitutu isə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası tərəfindən sertifikasiyadan keçir.

Müəllimlərin, təlimatçıların və mühəndislərin ixtisaslarının artırılmasına xüsusi diqqət yetirilir. "Azərbaycan Hava Yolları" QSC, "SW Group" müəssisələri, "Boeing", "Airbus", "Embraer" və "ATR" aviaşirkətləri, "L3Harris", "FlightSafety International" şirkətləri ilə yanaşı, ixtisasartırma Rusiya, Ukrayna, Litva, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, İsveçrə, Niderland, Lüksemburq, Finlandiya və digər ölkələrin hazırlıq mərkəzlərində həyata keçirilir.

Çoxprofilli təhsil ali məktəbə respublikada və beynəlxalq məkanda yüksək qiymət verilməsini təmin etmişdir. Azərbaycan mülki aviasiyasının uçuş heyətinin, mühəndis-texniki və digər mütəxəssislərinin 90 faizdən çoxu MAA-nın məzunlarıdır. Akademiyanın məzunları təkcə Azərbaycanın mülki aviasiya sistemində deyil, ölkə iqtisadiyyatının digər sahələrində, xarici aviaşirkətlərdə və aviasiya müəssisələrində fəaliyyət göstərərək kifayət qədər yüksək hazırlıq səviyyəsi nümayiş etdirirlər. Aviasiya akademiyası təhsil səviyyəsi, tələbə və məzunların uğurları, elmi və praktiki nəticələri ilə haqlı olaraq fəxr edir.

Azərbaycanın Milli Aviasiya Akademiyası rektor, Akademik Arif Mir Cəlal oğlu Paşayevin yaratdığı təhsil, elm, istehsalat və təcrübənin qarşılıqlı səmərəli əlaqəsinin parlaq nümunəsidir.

**Hörmətli rektorumuz, Akademik Arif Mir Cəlal oğlu Paşayevi doğum günü münasibətilə ürəkdən təbrik edirik!**

**Arif müəllimə möhkəm cansağlığı, şərəfli fəaliyyətində yeni uğurlar arzulayırıq!**

***Səmimi minnətdarlıq və hörmətlə:***

***AZAL və Milli Aviasiya Akademiyasının kollektivi***




# Kanallar lildən təmizlənir

Kəlbəcər Suvarma Sistemləri İdarəsinin balansında olan kollektor drenaj şəbəkələrində lildən və kol-kosdan təmizləmə işləri aparılır. Görülən işlər nəticəsində şoranlaşmaya görə keyfiyyəti aşağı düşən torpaq sahələri münbitləşir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov AZƏRTAC-a bildirib ki, 1993-cü ildən Bərdə rayonunun Lənbəran ərazisində fəaliyyət göstərən Kəlbəcər Suvarma Sistemləri İdarəsi Kəlbəcər rayonuna məxsus 1150 hektar ərazinin su təchizatını təmin edir. Lənbəran ərazisində suvarılma üçün Yuxarı Qarabağ kanalından su götürülür. İdarənin balansında 25 kilometr suvarma kanalı, 14 kilometrə yaxın kollektor drenaj şəbəkəsi, 2 ədəd nasos stansiyası, 10 kilometrə qədər boru mövcuddur. İdarə hər il olduğu kimi, bu il də suvarma mövsümü bitdikdən sonra gücləndirilmiş iş rejiminə keçərək, suvarma kanallarını texnikalar vasitəsilə lildən təmizləyir. Bundan başqa cari təmir işləri də aparılır. Bu işlər çərçivəsində 2 kilometr beton kanal təmir olunub və kanalın xidməti ərazisində su itkisinin qarşısı alınıb.

Bozdağ massivində yerləşən "Qismət-2017" nasos stansiyasında da cari təmir işləri yerinə yetirilib. Nasos stansiyasının su mənbəyi Kür çayıdır. Stansiyada 2021-ci ildə 75 kvt-luq elektrik mühərriki quraşdırılıb və 50 hektar sahəyə xidmət edən nasos stansiyası tam saz vəziyyətə gətirilərək, növbəti suvarma mövsümündə həmin sahələrin suvarılmasını təmin edəcək. Ərazidə taxıl, arpa və yonca əkilir.



Kəlbəcər Suvarma Sistemləri İdarəsi Bərdə, Göygöl və Samux rayonlarında torpaq sahələrinə xidmət edir. İdarə 2021-ci ildə suvarma kanallarında 26 min kubmetr, kollektor drenaj şəbəkələrində isə 37 min kubmetr lildən təmizləmə işlərini həyata keçirib.

# Kəndinə gəl...

## Bir ağsaqqalın öyüdü



**Qabil ailəsini də götürüb Bakıya köçəndən bəri kənddə tək-tək hallarda görünürdü. Yalnız xeyrə-şərə gəlirdi, o da vaxt və imkan tapanda... Əslində neçə illər əvvəl onun şəhərə gedişini heç "köç" adlandırmaq olmazdı. Çünki Qabil Bakıya işləməyə getmişdi. Sonra görmüşdü ki, Bəyaz üçün kənddə iki körpə ilə tək qalmaq çətindir. Buna görə onları da şəhərdə kirayələdiyi kiçik, yarızirzəmi mənzilə gətirmişdi.**

Dolanışıqları o qədər də ürəkaçan deyildi. Ötən müddət ərzində Qabil gah tikintidə və daş karxanasında fəhləlik etmiş, gah da Bakı bağlarındakı şəxsi evlərdə işləyərək hasar hörmüş, torpaq belləmiş, ağac əkmişdi.

Şəhərə gələndən sonra Qabilin ailə üzvlərinin sayı da artmış, üçüncü övladı dünyaya gəlmişdi. Odur ki, həyat yoldaşının işləyib ailə büdcəsinə dəstək verməsi çətinləşmişdi. Düzdür, Qabil çörəyini necə deyərlər, daşdan çıxarır və ailənin qazanı qaynayırdı. Yaşadıqları evin kirayəsini ödəyir, imkan olandan-olana uşaqların əyin-başını təzələyirdilər. Getdikcə onlar böyüyür və qayğılar artırdı. Perspektivdə isə heç nə yox idi. Məsələn, bu gedişlə Qabil şəhərdə mənzil sahibi ola bilməzdi.

Lakin kənddə Qabilin yaxşı bir evi vardı, babasından qalmışdı, atası isə onu təmir etdirmiş, genişləndirmişdi. Neçə ildir qapısı bağlı qalan, darvazasından dəmir qıfıl asılan həmin evin gülləri solmuş həyətində, ağacları qurumuş bağında o kişilərin narahat ruhu dolaşırdı. Çünki Qabil kəndə gələndə cəmi bir dəfə qapını açıb otaqlara və həyətə baş çəkməklə kifayətlənirdi. Kənddə ləngiməli olanda isə əmisigildə gecələyirdi.

Bu dəfə də belə oldu. Uzun bir qış gecəsi əmi-qardaşoğlu qarşılarında soyumaqda olan kəklikotu çayı, nədənsə, lal-dinməz oturmuşdular. Arada Qiyas əmi yorğun görünən Qabilin üzünə bir daha diqqətlə baxıb sakit, lakin qətiyyətlə:

- Kəndinə qayıt, bala, - dedi.

Qabil sanki yuxuda imiş kimi az qala dik atıldı, sonra sağ əlini alnına dayayıb gözlərini bir nöqtəyə zilləyərək əmisini axıradək belə dinlədi.

Qiyas kişi bir daha təkrar etdi:

- Tök daşı ətəyindən, kəndinə gəl, oğul. Yadımdadır, sən buralardan gedəndə vəziyyət çətin idi. O vaxtlar rəhmətlik Heydər Əliyev torpağı kəndliyə təzəcə vermişdi. Lakin onu əkib-becərməyənə texnika var idi, nə də əldə vəsait. Ölkə hələ ağır durumda idi, ayağa çətinliklə, tədricən qalxırdı. Çünki əvvəl bərbad günə salınmışdı. Səbəblərini məndən yaxşı bilirsən. Heç bağın meyvəsini bazara çıxarmaq mümkün deyildi. Saatlarla yolda qalırdıq, çünki nə yol yol idi, nə də nəqliyyat var idi. Sovetin vaxtında çəkilən qaz xətlərinin içi boş, evlər soyuq idi. Ağaclara qənim kəsilmişdik. Axşamlar elektrik lampalarının gücü yalnız "közərməyə" çatırdı. Gündüzlər isə heç işıq verilmirdi. Televizora baxmağa həsrət idik. Cavanlarımızın bir çoxu bax beləcə pərən-pərən düşdü. Bəziləri baş götürüb özgə məmləkətlərə, bəziləri də sənin kimi Bakıya, Sumqayıta getdi. O illərdə sizlərə deməyə sözümüz olmadı. Ancaq indi kənd o kənd deyil, oğul. Gör nə qədər təzə evlər tikilib. Biz Asif üçün evi bilirsən nə ilə qaldırdıq? Bax bu məhlənin kartofu, soğan-sarımsağı, göyərtisi ilə. Ata, iki oğul əl-ələ verdik, əkib-biçdiyimizi satdıq, ev tikəndən sonra Asifə toy elədik. Qarı ilə mən isə gördüyün kimi, Vasifgillə bir evdə mehribanlıqla baş-başa vermişik.

Deyim ki, indi ya kənd evi olsun, ya da şəhərdəki mənzil - heç təfavüt eləmir. Nədən ki, mətbəximizədək evin içindədir, soyuq su ilə yanaşı, isti suyumuz da var. Hələ üstəlik həyətdə yay mətbəximiz də qalır. Bacarığı olan öz yaşayışı üçün hər cür şərait düzəldib.

Sözün müxtəsəri, heç nədən korluq çəkmirik. Dövlətin kəndliyə göstərdiyi qayğıkeşlik sayəsində camaat getdikcə torpağa daha çox bağlanır. Çətinliyə düşəndə asanlıqla kredit götürüb işimizə davam edirik.

O biri rayonlarda da vəziyyət yaxşıdır. Vəsilə yadındadır də, dayım qızını deyirəm. Onu qonşu rayona gəlin apardılar, həmin vaxtdan da orada yaşayır. Cavanlıqdan bir əli dörd balasının başını sığallayanda o biri əlini torpaqdan üzmədi. Əri Hüseynlə birlikdə çalışıb gözəl ev-eşik düzəltdilər, güzəran qurdular. Həyat yoldaşı rəhmətə gedəndən sonra da Vəsilə özünü itirmədi. İndi övladları ilə birlikdə işləyir. Nə desən əkib-becərirlər - kələm, çuğundur, yerkökü... Bu tərəflərdə "qış armudu" deyilən gecyetişən bir armud sortu var, artıq itib-getməkdə idi. Vəsilə həmin armud ağaclarından yığcam bir bağ da salıb. Bir sözlə, əməlli-başlı sahibkar olub. Amma elə əvvəlki səmimi Vəsilədir, zarafatından da qalmır. Deyir ki, bibioğlu, mən işləyəndə nökər kimi işləyir, xərcləyəndə bəy kimi xərcləyirəm. İndi yollar rahat olduğundan dədə-baba yurduna tez-tez gəlir. Gələndə də hamımıza pay-parça gətirir.

Yol demişkən, indi o sarıdan da rahatıq. Yüngül maşınla rayon mərkəzinə 10-15 dəqiqəyə çatırıq. Oradan Bakıya günün istənilən vaxtında avtobuslar yola düşür. Şəhərə yol əvvəlkindən az qala iki saat az vaxt aparır. Bu yaxınlarda qəzetdə oxudum ki, son 18 ildə Azərbaycanda 19 min kilometrdən çox yeni yol çəkilib. Vallah möcüzədir!

Var olsun Prezidentimiz İlham Əliyev! Neçə dəfə rayonumuza da gəlib, camaatın qayğıları, dərd-səri ilə maraqlanıb. Əvvəl əkin yerlərini su ilə doyura bilmirdik. Bu məsələni də həll elədi. Rayon mərkəzində xalça fabriki açdı. Elə əmin qızı Cəmilə də orada işə düzəlib. O gün nəvələrim könlümə düşmüşdü, Cəmiləgilə getmişdim, işindən çox razılıq etdi.

Bala, qayıdıb kəndə gəlsən, Bəyaz gəlinim də işsiz qalmaz. İndi dövlət kəndlilərə elə evinin içində pul qazanmağa şərait yaradır. Buna özünüməşğulluq deyirlər. Qohum-qonşuda qadınlar bu yolla toyuq-cücə bəsləyirlər. Eşitmişəm ki, bəzi yerlərdə qadınlara tikiş maşını, şirniyyat bişirmək üçün işıqla işləyən soba da veriblər. İşsiz, qazancsız qalmasınlar deyə.

Sənin uşaqların təhsilindən də nigarançılığın olmasın. Sabah vağzala gedəndə yolunu kəndin təzə məktəbinin yanından salarsan. Mehriban xanımın nəzarəti ilə tikilib. Belə gözəl məktəbə bəlkə heç Bakının özündə də rast gəlməzsən.

Üzünü kəndə çevir, oğul, biz dədə-babadan torpaq adamı olmuşuq. Torpaq isə deyər ki, öldür məni, dirildim səni. Gəl, çırağını yandır, torpağını göyərt..."

Qiyas kişi gecədən xeyli keçdiyini xatırlayıb sözünə ara verdi. Sonra qardaşı oğluna yandakı otağı göstərib dedi: "Yaxşı, qalx, uzanıb dincəl, sübh tezdən yola çıxacaqsan".

Qabil Bakıya dərin düşüncələrlə, qəlbinin dərinliyində baş qaldıran xoş ümidlərlə qayıtdı. Şəhərə günortaya yaxın çatdı. Sonbeşik oğlu ikinci növbədə oxuduğundan hələ məktəbə getməmişdi. Altıncı sinif şagirdi olan Elxan coğrafiya dərsinə hazırlaşırdı. Mətnin sonundakı sualları yazılı cavablandırmışdı. Dəftəri atasına göstərdi. Təsadüfə bax ki, suallardan birində şagirddən soruşulurdu ki, şəhərdə, yoxsa kənddə yaşamaq istər? Hər iki halda səbəbi izah etmək də tapşırılmışdı. Elxan yazmışdı ki, kənddə yaşamaq istər. Səbəbini də belə ifadə etmişdi: "Kənddə həyətlər geniş, hava saf, ətraf çox gözəldir. Kənd yollarında tıxac yoxdur. Yeməklər təzə, təmiz və çox dadlıdır. Ən başlıcası, kənddə işsiz qalmaq mümkün deyil. Çünki hər kəsin torpağı var. Əkib-becərərsən, məhsulunu həm özün yeyərsən, həm də satıb pul qazanarsan".

Qabil baxışlarını 12 yaşlı Elxanın muncuq kimi düzdüyü sətirlərdən ayırmadan düşündü ki, lazım olan qərarı onun özündən əvvəl oğlu verib!..

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# TARSİM nümayəndə heyəti ölkəmizdə səfərdədir

Türkiyənin kənd təsərrüfatı sığortaları sistemi - TARSİM-in İdarə heyətinin sədri Kərim Üstünün rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycanda səfərdədir. Nümayəndə heyətinə TARSİM İdarə heyətinin sədr müavini Mete Güler, İdarə heyətinin üzvü və baş meneceri Serpil Günal, İdarə heyətinin üzvü Bekir Engürülü və baş direktorun müavini Tufan Özel də daxildir.

Aqrar Sığorta Fondundan AZƏRTAC-a bildiriblər ki, səfərdə məqsəd Azərbaycanda TARSİM-in dəstəyi və təcrübəsindən istifadə etməklə yaradılan aqrar sığorta mexanizminin fəaliyyəti ilə tanışlıq, sistemin fəaliyyətə başlamasından ötən müddət ərzində əldə edilən nəticələrin təhlili, təcrübə mübadiləsi, eləcə də Azərbaycanın bu təcrübəsinin başqa ölkələrdə tətbiqi imkanlarını müzakirə etməkdir.

Səfər zamanı TARSİM rəsmiləri Aqrar Sığorta Fondunda olub, aqrar sığortanın kənd təsərrüfatında rolu ilə bağlı müzakirələr aparılıb.

TARSİM rəhbərliyinin Kənd Təsərrüfatı Nazirliyində, Azərbaycan Mərkəzi Bankında bank və sığorta sektorunun təmsilçiləri ilə görüşləri də nəzərdə tutulur.

Səfər zamanı TARSİM rəhbərliyi Gəncə şəhərinə gedərək Azərbaycan Dövlət Aqrar Universitetində təşkil edilmiş tədbirə qatılacaq, eləcə də İkinci Qarabağ müharibəsi zamanı həlak olan Gəncə sakinlərinin xatirəsini yad edəcək.

Türkiyə nümayəndə heyətinin işğaldan azad olunmuş Zəngilan rayonuna səfər edərək, rayonun kənd təsərrüfatı imkanları və Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi ilə tanış olması da planlaşdırılır.

# Cəlilabadın üzüm bağlarında qış budama işləri yekunlaşmaq üzrədir

Cəlilabadın üzümçülük təsərrüfatlarında qış budaması davam etdirilir. Fermerlər bu il yeni tinglər hesabına 20 hektaradək əlavə üzüm bağları salıblar.



AZƏRTAC xəbər verir ki, Cəlilabadda üzüm bağlarında mühüm aqrotexniki tədbirlərdən biri olan budama işləri aparılır. Budama hər ağacın sortu, eləcə də, torpaq-iqlim şəraiti nəzərə alınaraq aparılır. Rayon ərazisində bu mühüm aqrotexniki tədbirə ötən ilin dekabr ayından start verilib və yaxın günlərdə başa çatacaq. Hazırda Cəlilabadda üzüm bağlarının ümumi sahəsi 1400 hektardan çoxdur.

Üzüm bağına qulluq edən Hüseyn Cəfərov bildirir ki, budamanın aparılması üzümçülükdə vacib amildir: "Hazırda qış budaması aparırıq. Qış suvarmasını isə bitirmişik. İnşallah iyun ayından yay suvarmasını edəcəyik. Bağları ildə iki dəfə suvarırıq. Yaxşı məhsul götürmək üçün bu işlərin görülməsi mütləqdir".

Təsərrüfat sahibi, fermer Ramazan Əliyev isə deyir ki, köhnə budaqların təmizlənməsi mütləq həyata keçirilməlidir. "Budama aparanda diqqətli olmaq lazımdır. Köhnə budaqları təmizləməliyik ki, cavan budaqlar gəlsin. Bununla ağaclar cavanlaşır, ömrü uzanır. Əgər budama aparılmasa, üzüm ağacı tez qocalar. Hazırda bağımda 20 yaşında ağaclar var. Bu qulluq nəticəsində üzüm ağaclarının ömrü daha da uzanacaq", - deyə o əlavə edir.

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun nümayəndəsi Azad Əkbərovun sözlərinə görə, qida maddəsi ilə zəngin və rütubətlə yaxşı təmin olunan sahələrdə hər hektar üzümlükdə orta hesabla 220-250 min, digər ərazilərdə isə 160-200 min gözcük saxlanmalıdır. Bu gözcüklər bar vaxtı çox yüksək və keyfiyyətli məhsulun alınmasını təmin edib.

Qeyd edək ki, rayonun üzüm bağlarında təxminən 20 məhsuldar sort becərilir. Ümumilikdə isə yerli üzüm sortları rayonda salınan bağların təxminən 15 faizini təşkil edir. Mütəxəssislərin sözlərinə görə, yaxın vaxtlarda müasir tingçilik təsərrüfatının fəaliyyətə başlaması ilə yerli üzüm sortlarının əkin sahələrinin iki dəfəyədək artırılması planlaşdırılır.

Fermerlərə tövsiyə

# Taxıl sahələrinə karbamid gübrəsinin verilməsi məhsuldarlığın artmasını təmin edir

Dünyada baş verən qlobal iqlim dəyişikliyi və iqtisadi böhran digər sahələrlə yanaşı, kənd təsərrüfatına da öz mənfi təsirini göstərir.

"Kənd təsərrüfatının əsas sahələrindən olan taxılçılıqda yüksək məhsulun alınması üçün düzgün aqrotexniki qulluq işləri aparılmalı və düzgün gübrələmə tətbiq olunmalıdır. Məhsuldarlığın artırılması və dənin keyfiyyət göstəricilərinin daha yaxşı olması üçün gübrənin düzgün seçilməsi vacibdir". Bu fikirləri Kənd Təsərrüfatı Nazirliyi yanında Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Faiq Xudayev bildirib.

Onun sözlərinə görə, Azərbaycanda taxılçılıqda əsas yemləmə gübrəsi kimi amonium şorasından (silitradan) daha çox geniş istifadə olunur: "Amonium şorasının tərkibində 34,7%, karbamid gübrəsində isə 46,2% təsiredici maddə hesabı ilə azot var. Aparılan tədqiqat işləri və qoyulan təcrübələr göstərir ki, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsiri baxımından karbamid gübrəsi silitradan heç də geri qalmır. Tərkibində azotun yüksək dərəcədə olması karbamidə iqtisadi cəhətdən üstünlük qazandırır. Eyni zamanda karbamid gübrəsinin üstünlüyü ondan ibarətdir ki, bu gübrənin satış qiyməti silitra gübrəsinə nisbətən təxminən 2 dəfə ucuzdur. Bitkiyə fiziki çəki hesabı ilə yemləmə şəklində bir hektara 200 kiloqram verilir. Aprel ayının ikinci yarısında isə kökdən kənar yemləmə formasında hektara 20-30 kiloqram olmaqla 200-250 litr suda həll edilməklə verilir. Fevral ayında verilən 100 kiloqram karbamid gübrəsi ziqzaq mala vasitəsilə (yaşıl mala) torpağa qarışdırılmalıdır". Faiq Xudayevin sözlərinə görə, karbamid gübrəsi bitkinin kollanma əmsalını artırır: "Eyni zamanda bitkinin yaşıl qalma müddətini uzadır ki, nəticədə dənin daha yaxşı dolmasına, sünbülün yaxşı inkişaf etməsinə, keyfiyyət göstəricilərinin yüksəlməsinə səbəb olur. Fermerlərimizə fevralın ikinci ongünlüyündən başlayaraq hər hektar əkin sahəsinə fiziki çəkidə 100 kiloqram karbamid verib yaşıl mala ilə torpağa qarışdırmağı tövsiyə edirəm".



# Ət və süd məhsullarının istehsalı artıb

Ötən il İmişli rayonunda heyvandarlıq sahəsində uğurlu nəticələr əldə olunub.

İmişli Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumat görə, 2021-ci ildə təsərrüfatlar üzrə iribuynuzlu mal-qaranın baş sayı 95873, qoyun və keçilərin baş sayı isə 254790 olub. İribuynuzlu mal-qaranın sayı 0,4 faiz artıb.



Təsərrüfatlar üzrə ev quşlarının baş sayı 985055 olub. Ət istehsalı (diri çəkidə) 13,4 min tona çatıb ki, bunun da 3,9 min tonunu quş əti təşkil edib. Süd istehsalı 50,4 min tona bərabər olub. Yumurta istehsalı isə 52 milyon ədəd təşkil edib. Yun istehsalında artım qeydə alınıb və 447,5 ton yun istehsal edilib. 2021-ci ildə kümçülərin istehsal etdiyi barama məhsulu artaraq 8610,4 kiloqrama çatıb.

# Tovuzda kartof səpininə başlanılmışdır

Prezidentin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin müəyyən etdiyi strateji hədəflərdən biri də kartofçuluğun inkişafı, təzə kartof istehsalının artırılmasının dəstəklənməsi, həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsidir.

Qeyd edək ki, ölkədə kartof istehsalının həcminə görə Tovuz öndə gedən rayonlardandır. Hər il bol kartof istehsal etməklə rayon sakinləri əhalini "ikinci çörək" adlandırılan ərzaqla təmin edirlər.

Cari ildə də tovuzlular bol məhsul istehsal etmək üçün geniş hazırlıq işlərinə başlamışlar. Bunun üçün rayonda ixtisaslaşmış fermerlər qrupu yaradılmış, müasir texnologiyaların tətbiqinə başlanılmış və faraş kartof istehsalında yüksək məhsuldarlıq əldə etmək üçün yüksək kondisiyalı toxum əldə edilmişdir.

Ötən il 6245,3 hektarda kartof əkən və 179172 ton məhsul götürən təsərrüfat sahibləri orta hesabla hər hektardan 286,9 sentner məhsul əldə etmişlər. Lakin bu göstərici ilə qane olmayan tovuzlular cari il hər hektardan 30 sentner məhsul götürməyi qarşılarına məqsəd qoymuşlar.

Hazırda rayonun aran zonasında kartof əkininə start verilmişdir. Kartofun əkini texnka ilə yanaşı, əl ilə də həyata keçirilir. Əkini sürətlə və aqrotexniki qaydalara uyğun aparan təsərrüfat sahibləri əmindirlər ki, cari ildə daha çox məhsul istehsal edəcəklər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Məktublar: problemlər, rəylər, təkliflər...



## Yeni məktəb binasına görə Heydər Əliyev Fonduna minnətdarıq

**Bizim Qoşabulaq Gədəbəyin ucqar kəndlərindəndir. Son illər rayonun digər kəndləri kimi, burada da bir sıra abadlıq və quruculuq işləri həyata keçirilmişdir. Lakin kəndimizdəki məktəb binası köhnə olduğundan uşaqlarımızın normal təhsil almalarında problemlər vardı.**



1959-cu ildə inşa edilmiş və cəmi 6 sinif otağından ibarət olan köhnə məktəbdə o qədər sıxlıq yaranmışdı ki, hətta dərslər növbə ilə keçirilirdi. Binanın özü isə yararsız vəziyyətə düşmüşdü. Ayrı-ayrı qurumlara dəfələrlə edilən müraciətlərimiz səmərəsiz qalmışdı.

Amma Heydər Əliyev Fondu köməyimizə gəldi. Kənddə 180 şagirdlik yeni məktəb binasının tikintisinə başlanıldı. İki il davam edən tikinti keçən ilin sonunda başa çatdı. İkimərtəbəli məktəb binasında 12 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika otağı, hərbi təlim və tibb, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, akt və idman zalları, eləcə də açıq havada idman meydançası yaradıldı. Məktəb müasir mebel və avadanlıqlarla da təmin edildi. Bir sözlə, məktəbdə tədrisin yüksək səviyyədə tədris olunması üçün bütün şərait mövcuddur.

Hörmətli redaksiya! Uşaqlarımızın yüksək səviyyədə təhsil almaları üçün yaratdığı şəraitə görə Heydər Əliyev Fonduna, eləcə də fondun prezidenti Mehriban xanım Əliyevaya kənd sakinləri adından dərin minnətdarlığımızı bildiririk.

*Vüsal İBRAHİMOV,*
*Gədəbəy rayonunun Qoşabulaq kənd sakini*

## Şuduqlu şagirdlərin artıq müasir məktəb binası var





**Qubanın Şuduq kəndi təbiəti və relyefi baxımından digər ərazilərdən seçilir. Kənd turistlərin həmişə həvəslə gəldikləri, təbiətinə vurğunluq ifadə etdikləri yerlərdəndir. Şuduq camaatı da dünyagörüşləri ilə fərqlənir. Bu kənddən təhsil alanların sayı digərlərinə nisbətən daha çoxdur.**

Amma uzun zaman idi ki, belə bir kəndin müasir tələblərə cavab verən məktəbi yox idi. Kənd şagirdləri qonşu kəndlərin məktəblərində təhsil almağa məcbur idilər. Kənd camaatı məktəb sarıdan əziyyət çəkdiklərini rayon rəhbərliyinə bildirdilər. Müraciət cavabsız qalmadı. Ötən ilin əvvəllərində kənddə modul tipli məktəbin tikintisinə başlanıldı. Şuduqun dəniz səviyyəsindən 950 metr yüksəklikdə yerləşməsinə baxmayaraq, yeni texnologiyalarla quraşdırılan məktəb binası az bir zamanda istifadəyə verildi.

Məktəb 40 şagirdlikdir. Bina yanğından xəbərdarlıq sistemi ilə yanaşı, işıq və su təchizatı ilə təmin edilib. Dərs ləvazimatları, bütün fənlər üzrə avadanlıqlarla təchiz olunan məktəbin açılışı bayram kimi qeyd edildi. Ən çox sevinən isə məktəblilər idi. Artıq onların canı qonşu kəndlərə getməkdən qurtulmuşdu.

*Qəhrəman QASIMOV,*
*Quba*

## AZƏRBAYCAN-a cavab verirlər

## "Müvafiq tədbirlər görülmüşdür"

**Qəzetimizin 13 yanvar 2022-ci il tarixli nömrəsində Siyəzəndən olan oxucumuzun "İri şəhərlərdəki tullantı konteynerlərindən rayon mərkəzində də qoyulsun" sərlövhəli məktubu dərc olunmuşdur.**

Məktubla əlaqədar Siyəzən RİH başçısının müavini **Aqşin Ağayev** redaksiyamıza cavab göndərmişdir. Cavabda yazılır:

"Bildiririk ki, Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə Siyəzən rayonu ərazisində kağız, karton və plastik tullantıların yığılması və təkrar emala verilməsi işinin təşkil edilməsi ilə əlaqədar rayon qərargahı yaradılmışdır. 2017-ci ilin aprel ayından kağız, karton və plastik tullantıların Azərbaycan Kağız və Karton İstehsalı Kombinatına təhvil verilməsinə başlanılmışdır.

Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 19 yanvar 2022-ci il tarixli sərəncamı ilə Siyəzən rayonu ərazisində 2022-ci ilin 19 yanvarından 30 yanvarınadək təmizlik ongünlüyü keçirilmiş tədbir çərçivəsində 31 ədəd bərk məişət tullantıları yığılan konteynerlər alınmış və şəhər ərazisində müxtəlif yerlərdə yerləşdirilmişdir.

Rayonun qəsəbə və kəndlərində, o cümlədən Bakı-Rusiya Federasiyası ilə Dövlət Sərhədi və Siyəzən-Məşrif avtomobil yolunun kənarlarında məişət tullantıları yığışdırılmış, "Xıdırzində" ziyarətgahı qarşısına asfalt örtüyü döşənmiş və digər abadlıq işləri görülmüşdür. Bu istiqamətdə işlər davam etdirilir.

Həyata keçirilən ardıcıl tədbirlər məişət tullantılarının vaxtında yığılması, daşınması işini yaxşılaşdırmış və Siyəzən şəhərinin təmiz saxlanılmasına şərait yaratmışdır.

Bununla yanaşı, bu sahədə problemlər də vardır. Ona görə də tərəfimizdən Kommunal Müəssisələri Kombinatının və Mənzil İstismar Sahəsinin maddi-texniki bazasının gücləndirilməsi üçün aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına müraciət edilmişdir".

## Kəndimizin su problemi nə vaxt həll olunacaq?

**Yaşadığımız Qədimqala kəndinin sakinləri olduqca işgüzar və zəhmətsevərdirlər. İnsanlar ailələrini halal əməkləri ilə dolandırırlar. Lakin son vaxtlar kəndimizdə yaranan su problemi bizi çıxılmaz vəziyyətə salıb.**

Bu gün kənddə nəinki əkinə, hətta içməyə də su tapmırıq. Məcbur olub maşınlarla su gətizdiririk ki, bu da ailə büdcəmizə ciddi təsir edir. Hətta kənd sakinləri öz vəsaitləri hesabına subartezian quyusu da qazdırıblar. Lakin onun işləməsi üçün elektrik enerjisi verilmir. Deyirlər ki, su quyusu balansa götürülməyib.

Sakinlərin şikayəti əsasında aidiyyəti qurumların nümayəndələri bir neçə dəfə kənddə olublar. Hətta kəndin yaxınlığında 2 nəhəng su çəni qoyulmuş, yaxınlıqda nasos quraşdırılmışdır. Bir müddət çaydan gələn su həmin çənlərə tökülür, nasos vasitəsi ilə kəndə verilirdi. Son günlər bunu da bizə çox gördülər. Sularımız kəsildi. Səbəbini soruşanda dedilər ki, çayda suyun səviyyəsi aşağı olduğu üçün su çənlərinə çatmır. İndi qalmışıq susuz.

Hörmətli redaksiya! Xahiş edirik bu işdə bizə kömək edib səsimizi yuxarılara çatdırasınız.

*Murad ASLANLI,*
*Şəmkir rayonunun Qədimqala kənd sakini*

## Həyətlərimiz avtodayanacağa çevrilib







**Hörmətli redaksiya!**

Son illər Bakıda görülən irimiqyaslı quruculuq və abadlıq işləri hər bir paytaxt sakini kimi məni də sevindirir. Salınan parklar və meydanlar, abad həyət və məhəllələr göz oxşayır. Amma həllini gözləyən problemlər də var.

Paytaxtımızda demək olar ki, bir çox, xüsusən köhnə binaların həyətləri avtodayanacağa çevrilib. Həyətdə saxlanılan maşınların çoxluğundan hərəkət etmək mümkün deyil. Hətta uşaqların əyləncəsi və ahılların istirahəti üçün nəzərdə tutulan yerlər də bəzən zəbt olunur. Biz görmüşük həyətdə yaşıllıq salınar, uşaqlar üçün əyləncə qurğuları, böyüklər üçün söhbətgahlar olar. Bizim bəzi həyətlər isə avtodayanacağı xatırladır.

Hörmətli redaksiya, problemin aktuallığını nəzərə alaraq biz sakinlərin səsini lazımi qurumlara çatdırmağınızı xahiş edirik.

*Qalib NOVRUZOV,*
*təqaüdçü*

## Terminalların və bankomatların sayının artırılması növbəyə son qoyar

**Quba ölkəmizin böyük rayonlarındandır. Rayonda istər əməkhaqlarının, istərsə də kommunal xidmətlərin haqqının ödənilməsi əsasən terminallar və bankomatlar vasitəsi ilə həyata keçirilir.**

Amma rayon mərkəzində bu texniki vasitələrin sayı azdır. Odur ki, onların qarşısında demək olar günün bütün saatlarında növbə olur. Mən özüm Paşaoba kəndində yaşayıram. Nə vaxt rayon mərkəzinə gəlsəm, bankomatların və terminalların qarşısında vaxt itirirəm.

Bunları yazmaqda məqsədim odur ki, bir neçə kəndi birləşdirən hansısa bir yerdə terminallar və bankomat quraşdırmaq olmazmı?

*Elçin MUSAYEV,*
*Quba*



## İki gündən bir su borusu partlayır, problemi isə taxta çüylə həll etmək istəyirlər

**Sizə Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, "Stroy detal" küçəsində yaşayan sakinlər adından müraciət edirik. Təxminən 2004-cü ildə qeyd olunan ünvanda torpaq sahəsi almışıq. 2007-2008-ci ildən bu məhəllədə yaşayış başlanıb. Evlər də sənəddə qeyd olunduğu kimi, su borusundan 6 metr məsafədə tikilib.**

Amma son 2-3 ildir ki, yerin altından daha 2 su borusunun keçdiyini bilmişik, o da borunun partlaması nəticəsində. Əgər bunu əvvəldən bilsəydik, həmin ərazidə torpaq almazdıq. Əziyyətlə ev tikmişik ki, boru partlayıb evlərimizin zirzəmisini, həyətini su bassın?!

**Hörmətli redaksiya!**

Artıq o boru 3 dəfə partlayıb. İkinci dəfə dekabrın 28-də partlamışdı. Hadisə səhər baş verdiyi halda, "Azərsu"nun işçiləri yalnız günorta saatlarında gəlib çıxdılar. Gec gəlmələri bir yana, problemi həll etmək üçün nə etsələr yaxşıdır?! İri su borusunun partlayan yerinə taxta çüy vurub getdilər. Məhəllə sakinləri etiraz etsələr də, ustalar borunun vaxtının keçdiyini, çuqun olduğundan partlaya biləcəyi üçün qaynaq edə bilmədiklərini söylədilər.

Elə isə boru niyə indiyə kimi dəyişdirilməyib? Hər dəfə şikayət etməliyik? Biz orada torpaq alanda ərazidə yol yox idi, dizə kimi palçığa batırdıq. Cibimizin pulu hesabına orada asfalt yol salmışıq. İndi isə hər dəfə "Azərsu"nun işçiləri gəlib yolu qazıb bərbad günə salırlar. Yenə problemi həll etsələr, dərd yarıdı. Bu gün isə heç kim zəmanət vermir ki, üç dəfə partlayan nəhəng su borusu bir daha partlamayacaq. Belə olan halda bunun məsuliyyətini kim daşımalıdır?

Hörmətli redaksiya! "Azərbaycan" ölkənin rəsmi qəzetidir. Ümid edirik ki, sizin qəzet vasitəsilə bizim şikayətimiz "Azərsu"nun rəhbərliyinə çatacaq və onlar problemin həlli üçün tədbir görəcəklər.

**Ziyafət ŞÜKÜROVA, Vüsal RAMİZLİ, İlhamə NARİN, Rahilə MƏSTƏLİYEVA, Çingiz İSMAYILOV, Asif RZAYEV, Elşən ŞİRİNOV, Raqif HACIYEV və başqaları**







## Biz də rahat yol istəyirik



**Neftçalanın Qaçaqkənd kəndində yaşayıram. Şorsulu - Xəzərkənd kənd avtomobil yolu kəndimizin ərazisindən keçir. Səhv etmirəmsə, 7 il əvvəl yolu əsaslı təmir adı ilə istifadəyə veriblər. Amma heç 2 il də keçməmiş yol əvvəlki vəziyyətindən də bərbad hala düşdü.**

İndi bu yolla Salyana, Bakıya, cənub istiqamətinə gedib-gəlmək probleme çevrilib. Çala-çuxurlu yolla hərəkət edən maşınlar sınıb-dağılır, adamlar əziyyət çəkməklə yanaşı, vaxt itkisilə üzləşirlər.

Onu da qeyd edim ki, uzunluğu 31 kilometrlik Şorsulu-Xəzərkənd avtomobil yolu boyunca 7 kənd var və bu kəndlərdə 30 min əhali yaşayır. Onların hər birinin işi, xeyiri-şəri bu yolla ötüşür. İstəyimiz odur ki, bizim də rahat yolumuz olsun. Çünki yol təkcə rahatlıq yox, həm də inkişaf, dolanışıqdır.

İnanırıq ki, əlaqədar təşkilatlar bizim səsimizi eşidib yolumuzun təmirinə, daha doğrusu, əsaslı şəkildə yenidən qurulmasına bir əncam çəkəcəklər. Ümumiyyətlə, bu yol həmişə təmirdən sonra tez bir zamanda sıradan çıxır. Çünki yolun yatağı əvvəldən çox zəif düzəldilib. İstərdik ki, bu dəfə yolda keyfiyyətli iş görülsün.

*Zəfər ABDULLAYEV,*
*Neftçala rayonunun Qaçaqkənd kənd sakini*

## Kəndimizə nə vaxt qaz veriləcək

**Bizim Abdal kəndi rayon mərkəzindən 36 kilometr kənarda yerləşir. Son illər bizim rayonumuzda da bir çox infrastruktur layihələri həyata keçirilmişdir ki, bunun da sayəsində bir çox problemlərimiz aradan qalxmışdır.**

Yolumuz təzələnmiş, su problemimiz həll edilmişdir. Kənddə elektron ATS istifadəyə verilib. Sakinlərin işlə təminatı da qaydaya salınıb. Dövlətin kənd təsərrüfatının inkişafına verdiyi dəstəkdən bəhrələnən kənd sakinləri hər il bol məhsul yetişdirməklə dolanışıqlarını da təmin edirlər.

Tək problemimiz varsa da, o da kəndimizə təbii qazın verilməməsidir. Uzun illərdir ki, evlərimizdə balon qazı işlədirik ki, bu da həm baha, həm də təhlükəlidir. Xüsusilə qış mövsümü gələndə əziyyətimiz birə-beş artır. Çünki evlərimizi odunla isidirik. Odun isə ildən-ilə bahalaşır. Məcbur olub pulumuzu boğazımızdan kəsib oduna veririk. Halbuki qaz xətti kəndimizin yaxınlığından keçir. Dəfələrlə aidiyyəti təşkilatlara müraciət etsək də bir nəticə olmur. Xahiş edirik bu işdə bizə kömək göstərəsiniz.

*İbrahim MƏSİMOV,*
*Tovuz rayonunun Abdal kənd sakini*





◆ Dünya gündəmi

# İraqda prezident seçkiləri növbəti dəfə təxirə salındı

## Bəzi namizədlər prosesdən kənarlaşdırılır

**İraqın Ali Məhkəməsi keçmiş xarici işlər naziri Hoşyar Zebarini korrupsiya ittihamları üzündən ölkə prezidenti vəzifəsinə namizədliyini irəli sürmək hüququndan məhrum edib.**





### İddiaların mahiyyəti

Ölkədə baş verən yeni qalmaqalın mərkəzində olan Hoşyar Zebari 10 ildən artıq Xarici İşlər Nazirliyinə rəhbərlik edib, bundan sonra isə Maliyyə Nazirliyinin rəhbəri vəzifəsini tutub. 2016-cı ildə korrupsiya və vəzifəsindən sui-istifadə etməkdə şübhəli bilindiyinə görə Zebari işdən çıxarılıb. O zaman onu dövlət büdcəsindən 1,8 milyon dollarlıq məqsədsiz xərclərdə ittiham ediblər.

Məhkəməyə müvafiq şikayət verən yeni parlamentin dörd üzvü Zebariyə məhz bu halı xatırladıb. Bundan əvvəl siyasətçi parlamentdə 31 yer almış Kürdüstan Demokratik Partiyası tərəfindən dövlət başçısı postuna namizəd irəli sürülüb. O, prezidentlik uğrunda yarışın favoritlərindən biri hesab olunurdu və uğur qazanmaq üçün bütün şanslara malik idi. Bu il ümumilikdə 25 namizəd olsa da, əsas rəqibi Kürd Vətən İttifaqı Partiyasının təmsilçisi, hazırkı lider Bərham Saleh idi. Lakin sabiq nazirin namizədliyinin irəli sürülməsi digər fraksiyalar tərəfindən etirazla qarşılanıb.

Rəsmi şikayətə cavab olaraq Ali Məhkəmə Hoşyar Zebarini səsvermədən kənarlaşdırıb, lakin o zaman qərarın müvəqqəti xarakter daşıdığı vurğulanıb. Bununla yanaşı, qərarda qeyd edilib ki, siyasətçi Konstitusiyanın baza tələblərinə uyğun gəlmir, yəni "yaxşı nüfuza və dürüstlüyə" malik deyil.

Seçkilər fevralın 7-də keçirilməli idi və bununla XİN-in keçmiş başçısının ambisiyaları üzərindən xətt çəkilirdi.

### Prezident seçkiləri baş tutmadı

Bununla belə, sonrakı hadisələr bir müddət Zebarinin ümidini qaytardı - həmin gün prezidentin təyin edilməsi haqqında qərar qəbul edilmədi. Buna səbəb bir sıra fraksiyaların səsverməni boykot etməsi və nəticədə kvorumun olmaması idi.

İraq parlamentində ilk olaraq şiə din xadimi Müqtəda Sədrin başçılıq etdiyi ən böyük "əs-Sayrun" bloku plebissitdə iştirakdan imtina edib. O, öz qərarını kürdlərin yekdilliklə bəyəndiyi və eyni zamanda Konstitusiyanın bütün tələblərinə və qaydalarına uyğun "konsensus namizədi" irəli sürməsinin zəruriliyi ilə əsaslandırıb. Boykotun digər partiyalar tərəfindən dəstəklənməsindən sonra prezident seçkiləri qeyri-müəyyən müddətə təxirə salınıb.

Fevralın 13-də Ali Məhkəmə Zebarinin seçkidən qəti şəkildə kənarlaşdırılmasını təsdiq edib. Bundan əlavə, ona gələcəkdə yüksək vəzifəyə namizədliyini irəli sürməsinə də qadağa qoyub.

Siyasi xadim bu qərarı siyasi motivli sayıb və jurnalistlərlə söhbətində bildirib ki, hüquqi baxımdan o, qanun qarşısında təmizdir. Belə ki, heç bir məhkəmə onun korrupsiya cinayətlərində təqsirini rəsmən sübut edə bilməyib, köhnə qalmaqal isə yalnız təsdiqlənməmiş ittihamlarla məhdudlaşıb.

İstənilən halda sabiq nazirin namizədliyinin ləğvi qanunvericilər arasında sərt mübahisələrin səbəbini aradan qaldırdı və növbəti liderin təsdiq olunması anını yaxınlaşdırdı. Qeyd edək ki, prezident vəzifəsi onun geniş səlahiyyətlərə malik olmasını nəzərdə tutmur. İraqda bütün hakimiyyət şiə icması nümayəndələrinin irəli sürdüyü baş nazirin əlində cəmləşib.

Məhz bu məqsədlə hazırda Müqtəda Sədr özünə parlament çoxluğu təmin edə biləcək koalisiyada siyasi rəqibləri ilə birləşmək üçün razılığa gəlməyə çalışır.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# İrəvan defolta çox yaxındır

## Ermənistanda iqtisadçılar həyəcan təbili çalırlar

Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan Ermənistan özünün daha sürətli tənəzzül dövrünə qədəm qoyub. Bu ölkədə real vəziyyətin təhlili göstərir ki, Ermənistanın üzləşdiyi böhran qarşıdakı müddət ərzində daha da dərinləşəcək. Belə vəziyyətdə Ermənistanda sayı sürətlə azalmaqda olan əhalinin hakimiyyətə qarşı sosial narazılığının daha da güclənəcəyi, eyni zamanda miqrasiya prosesinin yeni vüsət alacağı gözlənilir.

Hadisələrin sözügedən səpkidə inkişafına görə əsas məsuliyyət daşıyan tərəf kimi Nikol Paşinyan hakimiyyəti və onun yarıtmaz siyasəti göstərilir. Ermənistanın "İravunk" qəzeti yazır ki, ölkəni üzləşdiyi çoxsaylı problemlər burulğanından xilas etmək əvəzinə, hakimiyyət təmsilçiləri əvvəlki kimi şəxsi mənafelərini güdməklə məşğuldurlar. Nəticə isə ondan ibarətdir ki, korrupsiya və rüşvətxorluğun miqyası durmadan genişlənir, bu da öz növbəsində iqtisadi tənəzzül prosesini daha da sürətləndirir.

Qeyd edilir ki, korrupsiya və rüşvətin gömrük və vergi orqanlarında get-gedə daha dərin kök salması Ermənistan üçün çox təhlükəlidir. Çünki bu hal həm dövlət büdcəsinin boş qalmasına, həm də Ermənistan kimi idxaldan asılı olan bir dövlətdə inflyasiyanın davamlı artmasına rəvac verir.

Keçmiş deputat Qaqik Minasyan deyib ki, iqtisadiyyat xarici borc hesabına mövcud olduğu üçün Ermənistan defolta çox yaxındır. Defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir. Ermənistan isə onsuz da borc öhdəliklərini çətinliklə yerinə yetirirdi. Əslində, borc öhdəlikləri növbəti dəfə alınan başqa borclar hesabına yerinə yetirildiyindən ölkənin xaricdən olan iqtisadi asılılığı da sürətlə artırdı.

Deputat deyib ki, ölkə daxilində lazımi vasitələr formalaşmayıb, investisiyalar qoyulmur, siyasi sabitlik yoxdur. Minasyan qeyd edib ki, dəyişikliyə nail olmağın yeganə yolu Ermənistanın xain hakimiyyətinin aradan götürülməsidir. Əgər bu olmasa, çöküş qaçılmazdır.

Ermənistanın dövlət borcu 10 milyard dollara yaxınlaşıb. Ötən il 2 milyard dollara yaxın kredit götürüldüyü bildirilir. Qeyd olunur ki, iqtisadiyyatın çökməkdə olduğu şəraitdə Ermənistanın belə ağır borc yükünün altından qalxa biləcəyi ciddi şübhələr doğurur. Vurğulanır ki, maliyyə böhranı kontekstində xarici asılılıq amili daha da güclənəcək və ilk növbədə sadə əhaliyə mənfi istiqamətdə çox ciddi təsir göstərəcək. Əsas səbəb Ermənistanda qalan azsaylı əhalinin böyük əksəriyyətinin xaricdən göndərilən pullar sayəsində yaşayışlarını sürdürməsidir. Lakin son təhlillər göstərir ki, Ermənistana xaricdən göndərilən pulların həcmində də azalma qeydə alınır. Müxtəlif xarici ölkələrdə çalışan ermənilər əvvəlki kimi Ermənistanda qalan yaxınlarına pul vəsaiti göndərməkdə çətinlik çəkirlər. Ermənistan mediası yazır ki, yaranmış vəziyyətdə əhalinin gündəlik tələbat mallarına olan ehtiyacını minimal səviyyədə belə ödəməsi ciddi çətinliyə çevrilir.

Dövlətin maliyyə imkanlarının yoxluğu, artan xarici borclar Ermənistana müsbət heç nə vəd etmir. Əksinə, beynəlxalq təşkilatlar, müxtəlif xarici dövlətlər Ermənistana yeni borclar verilməsinə indi böyük ehtiyatla yanaşırlar. Çünki Ermənistan əvvəl aldığı xarici borcların qaytarılmasında böyük çətinliklər yaşayır, eyni zamanda bu ölkənin həmin borclar əvəzinə verə biləcəyi hansısa resursu da yoxdur. Əksər dövlət müəssisələri xarici borc əvəzinə çoxdan əcnəbilərin, əsas etibarı ilə Rusiya şirkətlərinin əlinə keçib. Yeri gəlmişkən, qeyd edək ki, həmin müəssisələrin çoxu fəaliyyətsizdir və yaxın perspektivdə də işə düşmələri gözlənilmir.

Bu arada məlum olub ki, baş nazir Paşinyan 44 günlük müharibəni araşdırmaq üçün yaradılmış komissiyanın iclasına çağırılacaq. Bu barədə komissiyanın rəhbəri, deputat Andranik Koçaryan jurnalistlərə məlumat verib. Deputatın sözlərinə görə, müxalifət baş naziri onları maraqlandıran mövzularda dindirmək imkanını itirib. Görüşün müddəti məhdud deyil, istənilən sualı vermək imkanı olacaq. Komissiyanın rəyində Paşinyanın məsuliyyətinin göstərilib-göstərilməyəcəyi ilə bağlı sualı Koçaryan belə cavablandırıb ki, bu, işin nəticələrinə əsasən olacaq. Bundan öncə isə "Hayastan" və "Şərəfim var" blokları 44 günlük müharibəni araşdıran komissiyanın işində iştirakdan imtina edib. Fraksiyaların birgə bəyanatında deyilir ki, ölkə hakimiyyəti öz hərəkətlərini obyektiv araşdıra bilməz. Komissiyaya yalnız Ermənistan parlamentinin Müdafiə və Təhlükəsizlik Daimi Komissiyasının üzvləri daxildir və 11 deputatdan ibarətdir.

Bunlar Ermənistanın bütün sahələrdə böyük tənəzzül yaşadığını bir daha aydın surətdə göstərir və bu ölkənin tarixin arxivinə qovuşacağını istisna etmir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Viktor Orban Macarıstanın Avropa İttifaqından çıxacağını istisna etmir



Əgər milli qanunvericiliyin aliliyi naminə Macarıstanın Brüssellə "müqəddəs müharibə"si öz bəhrəsini verməzsə, o halda ölkə Avropa İttifaqının tərkibindən çıxa bilər.

AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orban bu fikri millətə videomüraciətində bəyan edib. O, nitqində bu variantın istisna olmadığına və ciddi şəkildə nəzərdən keçirilməsinə açıq-aşkar işarə edərək "leninsayağı" tərzdə deyib: "Əgər biz ölkəmizə münasibətdə dözümlülük görməsək, o halda başqa yol ilə gedəcəyik". Brüssel Macarıstandan Aİ qanunlarının milli qanunlar üzərində aliliyinin tanınmasını tələb edir. Buna riayət etməyən ölkələri antiböhran subsidiyalarının azaldılacağı ilə hədələyirlər. Müqavimət göstərən Polşa da artıq 15 milyon avrodan məhrum edilib.

## Türkmənistanda prezident seçkiləri kampaniyasına start verilib

Fevralın 14-dən Türkmənistanda prezident seçkiləri ilə bağlı kampaniyaya start verilib.

AZƏRTAC xəbər verir ki, Türkmənistanın Seçki Məcəlləsinə uyğun olaraq, namizəd irəli sürmək hüququ seçkilərin təyin edildiyi günə qədər qeydə alınmış siyasi partiyalara, habelə vətəndaş qruplarına məxsusdur. Siyasi partiyalar öz qurultaylarında prezidentliyə namizədlər irəli sürməlidirlər.

Qeyd edək ki, Türkmənistanda üç siyasi partiya var - Türkmənistan Demokratik Partiyası, Türkmənistan Aqrar Partiyası və Türkmənistan Sənayeçilər və Sahibkarlar Partiyası. Türkmənistan prezidentliyinə namizəd bir qrup vətəndaş tərəfindən irəli sürüldükdə, o, ən azı 10 min seçici imzası ilə dəstəklənməlidir. Bu ölkədə anadan olmuş, yaşı 40-dan aşağı olmayan, dövlət dilini bilən, son on beş ildə ölkədə daimi yaşayan və işləyən vətəndaşı Türkmənistanın prezidenti seçilə bilər. Türkmənistan prezidenti birbaşa xalq tərəfindən yeddi il müddətinə seçilir və and içdiyi andan səlahiyyətlərinin icrasına başlayır. Türkmənistanda sonuncu dəfə prezident seçkiləri 2017-ci ildə keçirilib.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Müdafiə Nazirliyi: İşğaldan azad edilən ərazilərdə fevralın 1-dən 14-dək 374 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatından təmizlənib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad olunan ərazilərimizdə mühəndis işləri davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir. Eyni zamanda əkin sahələrinin minalardan təmizlənməsi üzrə fəaliyyətlər icra olunur.

Azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində fevralın 1-dən 14-dək olan müddətdə 374 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad olunan ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 13 min 868 hektardan artıq ərazi minalardan təmizlənib. Ümumilikdə piyada əleyhinə 6092, tank əleyhinə 2159 mina və 9012 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Azad olunan ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

## Bildiriş

"İZ TRAVEL" MMC-nin (VÖEN 1305211521, Bakı, Ə.Salamzadə küçəsi, ev 2D, mənzil 136) müflis elan edilməsi barədə kreditor Səbinə Fərhad qızı İsmayılova (Bakı, Bakıxanov qəsəbəsi, H.Balakişiyev küçəsi, ev 31) tərəfindən verilmiş iddia ərizəsinə Bakı Kommersiya Məhkəməsində 21.02.2022-ci ildə saat 11:50-də həmin məhkəmənin inzibati binasında baxılacaqdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımova anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Musa Qasımlıya anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradova anası

**İRADƏ MURADOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Muradovlar ailəsinə əzizləri

**İRADƏ MURADOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Musa Qasımlıya anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Musa Qasımlıya anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri və əməkdaşları komitənin sədr müavini, professor Musa Qasımlıya anası

**SİDİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Respublika Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi

**XƏZƏR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Musa Qasımlıya anası

**SİDİQƏ KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA İqtisadiyyat İnstitutundan professor Tofiq Hüseynov AMEA-nın müxbir üzvü Şahbaz Muradova və övladlarına əzizləri

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova əzizi

**XƏZƏR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin əməkdaşları şöbə müdirinin müavini Rövşən Muradova anası

**İRADƏ MURADOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin baş mütəxəssisi Elşad Qədirova bacısı

**MƏTANƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyevə atası, AMEA-nın Geologiya və Geofizika İnstitutunun Metasomatizm və metamorfizm şöbəsinin rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor

**CƏBRAYIL AZADƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5491
Sifariş 441
Qiyməti 40 qəpik